Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

13-15 APREL 2019-cu il

№ 66 (3964)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# QARSDAKI BAŞ KONSULUMUZUN ADI FƏTULLAH GÜLƏNLƏ İŞBİRLİYİNDƏ (?)...

■ səh. 4 ■



■ səh. 8 ■

## Ermənistandan Putinə «qatil» ittihamına rəsmi Moskvanın cavabı gecikir - dilavər Zaxarovanın da səsi çıxmır...

Prezidentin şəxsi nəzarətə götürdüyü məsələlər - ölkədə məmur yarıtmazlığı problemini təsdiqləyən fakt...

■ səh. 3 ■

Paşinyan İlham Əliyevlə Vyanada görüşünün hesabatını AŞPA-da verdi...

■ səh. 9 ■

Zaxarovanın Rusiya XİN adından yeni antiazərbaycançılığı, ya erməni mediasının uydurması - Qarabağın hava məkanına beynəlxalq açılış (?)...

■ səh. 3 ■

Paşinyan İrəvanda Tonoyanın "yeni işğallar" fikrini dəstəklədi, Strasburqda sözünü dəyişdi - bir başda iki ağıl...

■ səh. 5 ■

50-dən çox mübahisəli məhbus azad edilsə də, AŞ PA Azərbaycana hələ də "qərəz bucağından" baxır...

■ səh. 4 ■

Qaregin Dünya dini liderlərinin Bakı sammitində...

■ səh. 5 ■

Bakı restoranlarında müştərilər əleyhinə yeni tələ - "depozit"...

■ səh. 15 ■

Məktəblərdə fizika fənni üzrə dərs saatları yetərlidirmi?

■ səh. 12 ■



**Bakı məktəblisinin intiharına görə müqəssirlər dairəsi genişləndi**

■ səh. 7 ■

Azərbaycan maliyyə sistemində inqilab - manat istiqrazlarının buraxılışına başlanır...

■ səh. 11 ■




**Bank faizlərinin sahibkarlığın inkişafına ağır təsirinə yeni sübutlar...**

■ səh. 10 ■

■ səh. 12 ■

Rektor Nurlana Əliyeva Slavyan Universitetində təhsil haqqı üzrə ciddi maliyyə pozuntularına aydınlıq gətirdi



■ səh. 8 ■

AŞPA-nın insan haqları komissarı qondarma "DQR"də - Yaqlandın "təpələr arxasındakı" ermənipərəst marağı...



■ səh. 6 ■

Makron ən böyük Türk-Azərbaycan düşmənçiliyini etdi - Fransanın Azərbaycanda iqtisadi maraqları isə...



■ səh. 15 ■

Yeni turizm mövsümü başlayır, Bakıda valyutadəyişmə məntəqələrinin sayı ətrafında müzakirələr var...



■ səh. 10 ■

Türkmənistan qazı Azərbaycana nə ilə mane olur?...



## Azərbaycan XİN Paşinyana "maarifçilik dərsi" keçməkdə davam edir

*"Paşinyanın tez-tez bəyan etdiyi "sülh mühitinin yaradılması" Ermənistan işğalçı qüvvələri Azərbaycan ərazilərindən geri çəkilmədən mümkün deyil"*

**Azərbaycan Xarici İşlər Nazirliyi Ermənistanın baş naziri Nikol Paşinyanın fikirlərini şərh edib.**

**Nazirliyin Mətbuat xidmətindən baki-xeber.com-a verilən məlumata görə, şərhdə deyilir ki, N.Paşinyanın münaqişənin həlli kontekstində tez-tez bəyan etdiyi "sülh mühitinin yaradılması" Ermənistan işğalçı qüvvələri Azərbaycan ərazilərindən geri çəkilmədən və oradan zorla qovulmuş azərbaycanlı məcburi köçkünlər geri qayıtmadan mümkün deyil:**



"Ermənistan rəhbərliyi bunu aydın şəkildə başa düşməlidir. Əgər "A" deyilirsə, "B" də deyilməlidir. Bunlar ayrılmaz səbəb-nəticə əlaqəsində olan məqamlardır. Bütün bəlaların kökündə duran səbəb məhz Ermənistanın Azərbaycana qarşı yürütdüyü təcavüzkar və işğalçı siyasətdir, nəticələr isə sülh və qarşılıqlı etimad mühitinin yaradılması da daxil olmaqla yerdə qalan digər məsələlərdir. Bu, bir aksiomdur".

---

## Makron Fransa polisinə "Sarı jiletlilər"i güllələmək əmri verdi

**Fransada yanacağın bahalaşmasına qarşı başlayan etiraz aksiyaları ötən şənbə 21-ci həftəni də arxada qoydu.**




Baki-xeber.com xarici mediaya istinadən xəbər verir ki, Fransız hökuməti bütün vasitələrə əl ataraq aksiyaların qarşısını almağa çalışır. Bu çərçivədə yeni qanunlar qüvvəyə minir, sərt xəbərdarlıqlar edilir, ancaq etirazçılar geri çəkilmək istəmir.

Baxmayaraq ki, polis zorakılığı nəticəsində ölənlər, yüzlərlə yaralanan, əlil olanlar var. Dünya isə 21 həftədir (bu həftə də keçirilərsə 22-ci) davam edən aksiyalarda polis zorakılığını hələlik sükutla qarşılayır.

Bunu fürsət bilən, xalqın tələblərini qulaqardına vuran hakimiyyət isə etirazları yatırmaq üçün qanunları daha da sərtləşdirir. Son olaraq imzalaması üçün Fransa prezidenti Emmanuel Makronun qarşısına yeni qanun qoyulub. Bu qanun polisə etirazçılara qarşı həqiqi güllələrdən istifadə etməyə icazə verir.

Qanun layihəsinə görə, etiraz aksiyalarında hüquq-mühafizə orqanları hər hansı bir mənfi davranış olduğu halda istənilən şəkildə olaya müdaxilə edə biləcək. Yəni yeni qanun fransız polisinin həqiqi güllələrdən istifadə etməsinin yolunu açır.

"Sarı jiletlilər"in etirazlarına son qoymaq istəyən prezident Makron isə bu qanunu tərəddüd etmədən imzalayıb.

Yeni qanun polisə nümayişlər zamanı çantaları və avtomobilləri yoxlamağa da icazə verir. Saxlanan və polislərə zor tətbiq edən etirazçılar bir il müddətinə həbs cəzası alacaq, bundan başqa, 17 min dollar cərimə ediləcəklər.

***Baki-xeber.com***

---

## Paşinyanın Strasburqda erməni icması ilə görüşündə qalmaqal yaranıb

**Aprelin 11-də Fransanın Strasburq şəhərində Ermənistanın baş naziri Nikol Paşinyanın erməni icması ilə görüşü zamanı qalmaqal yaranıb.**

"Trend"in erməni KİV-inə istinadən verdiyi məlumata görə, görüş zamanı icmanın nümayəndələrindən biri baş nazirə bildirib ki, "məxməri inqilab"dan sonra da seçicilərin pulla ələ alınması halları var.

N.Paşinyan isə cavabında həmin şəxsin ölkəyə gəlməsini, bu barədə polisə məlumat verməsini məsləhət görüb: "Amma bu məlumatın doğru olmadığı sübut edilsə, sizi həbsə ata bilərlər".

Lakin həmin şəxs öz fikrindən dönməyib. Vəziyyəti belə görən digər iştirakçılar da baş nazirə sual vermək istəyiblər və hay-küy yaranıb. N.Paşinyan çıxışını yarımçıq saxlamağa məcbur olub.

# Prezident İlham Əliyev Rusiya Federasiya Şurasının sədrinə "Dostluq" ordeni təqdim etdi

**Prezident İlham Əliyev aprelin 12-də Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının sədri xanım Valentina Matviyenkonun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**



Baki-xeber.com-un xəbərinə görə, görüşdə Prezident İlham Əliyev Rusiya Federal Məclisi Federasiya Şurasının sədri Valentina Matviyenkoya Azərbaycanın "Dostluq" ordenini təqdim edib.

Xanım Valentina Matviyenko Azərbaycanla Rusiya arasında əməkdaşlıq və qarşılıqlı əlaqələrin möhkəmləndirilməsində xüsusi xidmətlərinə görə dövlət başçısının Sərəncamı ilə bu ordenlə təltif olunub.

---

# Əli Həsənov Azərbaycan-Britaniya münasibətlərinin tarixindən maraqlı faktlar açdı

**Azərbaycan və Böyük Britaniya arasında münasibətlər Avropa ölkələri üçün bir nümunədir.**

"Trend"in məlumatına görə, bunu Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov "Azərbaycan və Böyük Britaniya əməkdaşlığının 100 illiyi" kitabının təqdimat mərasimində çıxışı zamanı deyib.



Ə.Həsənov qeyd edib ki, Azərbaycan və Böyük Britaniya arasında diplomatik əlaqələrdən tutmuş iqtisadi, siyasi və ticarət əlaqələrinə qədər bütün sahələri əhatə edən əməkdaşlığın tarixi 100 illə ölçülür: "Amma tarixdən də bəllidir ki, Azərbaycanla Böyük Britaniya arasında əlaqələrin tarixi daha qədimə gedib çıxır. Əlbəttə, sistemli əlaqələrdən söhbət gedirsə, bu əlaqələrin 100 illiyini qeyd etmək olar. Böyük Britaniya ilə Azərbaycan arasında əlaqələrin tarixi salnamələrdə təxminən XVI-XVII əsrlərə gedib çıxır. Hələ Böyük Britaniya Kraliçası Elizabet Tüdor öz elçisi ilə Səfəvi şahı Təhmasibə məktub göndərmişdi. Bununla da Britaniya ilə Səfəvilər arasında diplomatik və iqtisadi münasibətlər yaranmışdı".

Prezidentin köməkçisi bildirib ki, Azərbaycan Xalq Cümhuriyyəti dövründə Böyük Britaniyanın general-qubernatoru Tiflisdə otursa da, tez-tez Bakıya gəlir, Azərbaycanla gələcək siyasi, iqtisadi münasibətləri tənzimləyirdi və Britaniya faktiki olaraq Xalq Cümhuriyyətini tanımışdı: "Sonrakı dövrdə Xalq Cümhuriyyətinin süqutu nəticəsində artıq Böyük Britaniya-Azərbaycan deyil, Böyük Britaniya-SSRİ münasibətləri çərçivəsində Britaniya ilə münasibətlər qurduq. Azərbaycanın müstəqillik dövrü münasibətlərimizi tam geniş spektrdə əhatə edir. 1993-cü ilin iyun ayında Azərbaycanda xalqın təkidi ilə hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyevin qəbul etdiyi ilk səfir məhz Böyük Britaniya səfiri oldu. Həmin ilin iyul ayının sonunda Böyük Britaniyanın Bakıdakı səfiri ilə ümummili lider Heydər Əliyev arasında geniş bir görüş keçirildi".

Ə.Həsənov əlavə edib ki, o zaman Böyük Britaniya BMT Təhlükəsizlik Şurasının sədri idi və Təhlükəsizlik Şurasının 853-cü qətnaməsinin qəbul olunması birbaşa Böyük Britaniyanın təşəbbüsü ilə onun sədrliyi dövründə baş tutdu: "BMT Təhlükəsizlik Şurasının Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı qəbul etdiyi 4 qətnaməyə diqqət yetirsək görərik ki, məhz 853-cü qətnamə ən dəqiq ifadə ilə erməni işğalçı qüvvələrinin Azərbaycanın işğal edilmiş torpaqlarından qeyd-şərtsiz çıxarılmasını tələb edir".

Onun sözlərinə görə, bundan sonra BP-nin Azərbaycanda sözün həqiqi mənasında tarix yaratması dövrü başlayır: "BP Azərbaycanın enerji sektoruna ən çox sərmayə qoyan xarici şirkətdir. BP Azərbaycanla Böyük Britaniya arasında əlaqələrin strateji səviyyəyə yüksəlməsində mühüm rol oynayıb. Ümumiyyətlə, Böyük Britaniya Azərbaycanın Avropada ən böyük tərəfdaşıdır. İki ölkə arasında bütün sahələrdə strateji münasibətlər var və bu gün iqtisadi, siyasi, sosial və digər sahələrdəki münasibətlər Avropa ölkələri üçün bir nümunədir, bir standartdır".

Prezidentin köməkçisi bildirib: "Düşünürük ki, Böyük Britaniya Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanması məsələsində indiyə qədər oynadığı rolu bundan sonra da oynayacaq, Azərbaycanın haqq mövqeyinin beynəlxalq aləmdə tanınmasına, işğal edilmiş torpaqlarımızın azad edilməsinə, Azərbaycanın bir milyondan artıq qaçqın və məcburi köçkününün öz doğma torpaqlarına qayıtmasına öz dəstəyini göstərəcək".

# Prezidentin şəxsi nəzarətə götürdüyü məsələlər - ölkədə məmur yarıtmazlığı problemini təsdiqləyən fakt...

**Son vaxtlar müəyyən vətəndaşların şəxsi işləri və şikayətləri ilə bağlı bir sıra ictimailəşmiş məsələlərin həllinə birbaşa Prezidentin, Birinci vitse-prezidentin müdaxiləsinin şahidi oluruq. Ölkə başçısı humanizm prinsiplərindən çıxış edərək, sözügedən məsələləri nəzarətə götürür və onların həllini təmin edir.**

*"Ona görə də bundan məmurlar, iş adamları və digər cavabdeh şəxslər ciddi nəticə çıxarmalıdırlar"*

Bununla bağlı mövcud problemlər dərhal aradan qaldırılır.

Bu kimi faktların təhlili belə rəy yaradır ki, Prezidentin bəzən reaksiya verməyə məcbur olduğu məsələləri, əslində, yerli məmurlar, nazirlər və ya komitə rəhbərləri səviyyəsində həll etmək mümkündür. Əslində, bütün bunları onlar həll etməlidirlər. Ancaq təəssüf ki, biz bu məsələlərin həll edilmədiyini görürük. Nəticədə bu problemlər böyüyərək şişir, daha sonra ictimailəşir. Vaxtında həll edilmədiyinə görə də ölkə başçısı buna müdaxilə etməli olur. Aydındır ki, Prezident İlham Əliyevin ölkə başçısı olaraq daha böyük və ciddi işləri var. Nəticədə ortaya belə bir mənzərə çıxır ki, bəzi məmurların öz işlərinin öhdəsindən gələ bilməməsi üzündən bu vəziyyət yaranır. Halbuki, bu işlərə cavabdeh olanlar öz məsuliyyətlərini dərk edib vaxtında problemləri həll etsəydilər, belə vəziyyət yaranmazdı. Yəni onların görməli olduğu işi Prezident görməzdi. Təkcə son həftələrdə Prezidentin və Birinci vitse-prezidentin şəxsi nəzarətinə götürülərək həll edilən məsələləri yada salmaq kifayətdir ki, bunun həqiqət olduğunu görə bilək. Bu baxımdan, sözügedən məsələni ekspertlər necə dəyərləndirirlər?

**Məsələyə münasibət bildirən ekspert Rəsul Cahangirlinin sözlərinə görə, bəzi məmurların, cavabdeh şəxslərin öz işlərinə məsuliyyətli yanaşmaması üzündən belə vəziyyət yaranır:** "Prezident İlham Əliyev, belə olan halda, məsələyə özü müdaxilə etməli olur. O cümlədən, Birinci vitse-prezident Mehriban Əliyeva bu kimi problemləri həll etməli olur. Dəfələrlə biz bunun şahidi olmuşuq. Son günlər bununla bağlı yaşananlar deyilənlərə əyani sübutdur. Bu onu göstərir ki, bir sıra məmurların görməli olduğu işi ölkə başçısı görməli olur. Həmin məsuliyyətsiz məmurlardan fərqli olaraq, Prezident İlham Əliyev hər zaman öz işinə ciddi yanaşır, xalqın maraqlarından çıxış edir. Ən çətin günlərdə xalqın yanında olur. Necə ki, dəfələrlə bunun şahidi olmuşuq. Bəzi məmurların nöqsanları sayəsində problemlər üst-üstə yığılaraq xoşagəlməz fəsadlara yol açır. Bununla onlar həm də Prezidenti çətin vəziyyətdə qoyurlar.

## Rəsul Cahangirli: *"Bəzi məmurların, cavabdeh şəxslərin öz işlərinə məsuliyyətli yanaşmaması üzündən belə vəziyyət yaranır"*



**Problemlər vaxtında həll edilsə, vəziyyət bu həddə gəlib çatmaz. Ona görə də bundan məmurlar, iş adamları və digər cavabdeh şəxslər ciddi nəticə çıxarmalı, Prezidenti əlavə işlərlə məşğul etməməlidirlər. Belə halların təkrarlanmasına yol verməməlidirlər".**

***Vidadi ORDAHALLI***

# Zaxarovanın Rusiya XİN adından yeni antiazərbaycançılığı, ya erməni mediasının uydurması - Qarabağın hava məkanına beynəlxalq açılış (?)...

**Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova Dağlıq Qarabağda separatçı qurumun eks məmurunun səsləndirdiyi cəfəng fikrə reaksiya verib. Erməni KİV-inin verdiyi məlumata görə, qondarma qurumun sabiq "baş naziri" Araik Arutunyan Azərbaycanla əməkdaşlıq perspektivi üçün iki təklif irəli sürüb.**



*"Onlardan necə istifadə ilə bağlı qaydaları və icazəni Azərbaycan dövləti müəyyənləşdirir"*

Bunlardan biri Sərsəng su anbarının birgə istismarı və Dağlıq Qarabağın hava məkanını beynəlxalq uçuşlar üçün açmaq məsələsidir. Nə qədər qəribə olsa da, Rusiya XİN-in rəsmisi Zaxarova ənənəvi mətbuat konfransında bu sərsəm təklif barədə danışıb: "Hesab edirəm ki, bu və ya digər təklif və təşəbbüsləri ilk növbədə, sözsüz ki, münaqişə tərəfləri qiymətləndirməlidirlər. Sonra isə bu və digər ölkənin və ya həmsədr ölkələrin iştirakına ehtiyac olarsa, bu məsələyə baxıla bilər. Hesab edirəm ki, bu və digər məsələlərə Moskvada keçiriləcək görüşdə baxılması üçün yaxşı imkan olacaq".

Çox maraqlıdır ki, Mariya Zaxarova Ermənistanın rəsmi şəxsi olmayan bir adamın səsləndirdiyi lazımsız təklifi müzakirə edir, hətta bunun mümkünlüyünə dair ümid toxumu da səpir. Rusiyanın rəsmi şəxsinin bu davranışını necə qiymətləndirə bilərik?

**Təhlükəsizlik məsələləri üzrə ekspert Elşən Həsənov qəzetimizə açıqlamasında bildirdi ki, edilən təklifin özü qeyri-ciddidir:** "Dağlıq Qarabağdakı hansısa bir eks separatçı məmurun təklifi nə vaxtdan müzakirə üçün əsas sayılıb? Mən Ermənistan KİV-ində gedən məlumatları nəzərdən keçirdim. Onlar bunu toy-bayramla qarşılayıblar. Təqdimatı da belə edirlər ki, Zaxarova filankəsin təklifinə reaksiya verdi. Bu məsələyə müxtəlif aspektlərdən yanaşmaq lazımdır. Əvvəla həmin adam kimdir ki, münaqişə tərəflərinə hansısa təklif təqdim etsin? İkincisi, Dağlıq Qarabağdakı hava məkanı və Sərsəng su anbarı birbaşa Azərbaycanın ərazisinə aid olan subyektlərdir. Onlardan necə istifadə ilə bağlı qaydaları və icazəni Azərbaycan dövləti müəyyənləşdirir. Üçüncüsü, Rusiya kimi böyük ölkənin XİN-i adından belə məsuliyyətsiz bəyanata niyə şərh verilir? Zaxarova deyə bilər ki, o, kiminsə bəyanatını şərh etməyib, sadəcə, jurnalistin sualına cavab verib. Amma belə deyil. Çünki Zaxarovanın bəyanatının özündə bir qərəz və ermənilərə dəstək notları var. Deyir ki, bunun mümkünlüyü müzakirə olunacaq.

Biz ilk dəfə deyil ki, Rusiya XİN-i adından Moskva ilə Bakının münasibətlərinə adekvat olmayan bəyanatların verildiyinin şahidi oluruq. Sanki Rusiya XİN-də ayrıca bir ermənipərəst qanad var ki, bu prosesləri belə gərginləşdirməklə məşğuldur. Zaxarovanın bəyanatını başqa bir ölkənin daxili işinə müdaxilə kimi dəyərləndirirəm. Hesab edirəm ki, rəsmi Bakı buna öz etirazını bildirməlidir".

## Elşən Həsənov: *"Dağlıq Qarabağdakı hansısa bir eks separatçı məmurun təklifi nə vaxtdan müzakirə üçün əsas sayılıb?"*

***Məhəmmədəli QƏRİBLİ***

**Artıq bir neçə gündür sosial şəbəkələrdə Azərbaycanın Türkiyənin Qars şəhərindəki baş konsulu Nuru Quliyevlə həmin bölgədə fəaliyyət göstərən Əsassiz Erməni İddiaları ilə Mücadilə Dərnəyinin (ASİMDER) rəhbəri, Azərbaycan cəmiyyətinə adı yaxşı tanış olan Göksəl Gülbəy arasında ciddi qalmaqalın baş qaldırdığının şahidi oluruq.**

***Akif Nağı:*** *"Söhbət Fətullah Gülənin olduğu hansısa məclisdə həm də Nuru Quliyevin guya iştirak etdiyinə dair fotodan gedirdi"*

***İsmayıl Ağayev:*** *"Bu narazılığın daha da qızışmasında həm Azərbaycan, həm də Türkiyə tərəfində maraqlı qüvvələr vardı"*

# Qarsdakı baş konsulumuzun adı Fətullah Gülənlə işbirliyində (?)...

*Baş konsul məşhur ASİMDER rəhbərinə qarşı hansı iddiaları qaldırıb?*

Yayılan sənədlərin məzmunundan görünür ki, baş konsul İqdır Prokurorluğuna rəsmi şikayət eməyə məcbur olub.

Şikayətin mətnindən aydın olur ki, ASİMDER rəhbəri konsulluğun İqdırdakı nümayəndəsinə hansısa şəkli göstərərək, N.Quliyevi təhdid edib. Buna görə də N.Quliyev prokurorluğa müraciət etmək məcburiyyətində qalıb. Həmin vaxt Göksəl Gülbəy öz "Facebook" səhifəsində yaydığı məlumatda konsul tərəfindən barəsində şikayət edildiyini təsdiqləyib, ancaq şikayətdəki detalları tam əsassız sayıb. Əldə etdiyimiz məlumata görə, yaranmış bu vəziyyətdən narahat olan Azərbaycanın bəzi QHT rəhbərləri tərəfləri barışdırmaq missiyasını üzərlərinə götürərək, Qars və İqdıra səfər ediblər. **Bildirilir ki, bu şəxslərdən biri də Qarabağ Azadlıq Təşkilatının sədri Akif Nağı olub.**

QAT sədri "Bakı-Xəbər"ə açıqlamasında məlumatı təsdiqlədi: "Bəli, çox üzücü bir vəziyyət yaranmışdı. Mən Göksəl Gülbəyi yaxından tanıyıram. Bir yerdə fəaliyyətimiz də mövcuddur. Bilirəm ki, Azərbaycanı sevən adamdır. Ötən həftə baş konsul N.Quliyevlə telefon danışığımız oldu. Bölgəyə səfər etmək zərurəti ortaya çıxdı. Mən ötən həftənin ortalarında orada oldum. İqdır və Qars şəhərlərində QHT və media nümayəndələri ilə görüşdüm. Onların da hamısı bildirdi ki, bu qalmaqala son qoyulmalıdır. Biz də belə hesab etdik ki, ASİMDER rəhbəri özünün əsası olmayan iddialarından geri çəkilməlidir. Çünki burada söhbət tək N.Quliyevin şəxsindən deyil, eyni zamanda, onun tutduğu vəzifənin önəmindən gedirdi. Gəlirəm sualınızın ikinci hissəsinə. Qalmaqala səbəb konsulumuzun montaj olunan bir foto ilə bağlı adını xoşagəlməz hadisələrdə hallandırmaq cəhdi olub.



Söhbət Fətullah Gülənin olduğu hansısa məclisdə həm də N.Quliyevin guya iştirak etdiyinə dair fotodan gedirdi. Mən baxan kimi bildim ki, həmin foto montajdır. Bu aydın şəkildə sezilirdi. Hesab edirəm ki, bu narazılıqların aradan qaldırılması istiqamətində görülən səylər fayda vermək üzrədir. Əldə etdiyim məlumata görə, məndən sonra da bəzi QHT nümayəndələri barışıq təşəbbüsü ilə çıxış ediblər".

**Məlum oldu ki, Akif Nağıdan sonra Türkiyənin həmin bölgəsinə Beynəlxalq Diaspor Mərkəzinin rəhbərliyi də səfər edib.** BDM nümyaəndəsi kimi həmin missiyada İsmayıl Ağayevlə Samir Adıgözəlli təmsil olunublar. BDM sədri İsmayıl Ağayev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, ASİMDER başqanı ilə baş konsul arasındakı münaqişəyə tamamilə son qoyuldu: "Biz bunu alqışlayırıq. Ortada ciddi bir narazılıq vardı. Söhbət montaj olunan foto ilə konsulun şantaj edilməsi və N.Quliyevə qarşı Türkiyə mediasında qara piarın aparılmasından gedirdi.

Bu narazılığın daha da qızışmasında həm Azərbaycan, həm də Türkiyə tərəfində maraqlı qüvvələr vardı. Biz burada olarkən araşdırma apardıq. Onları bir araya gətirdik. Tam məlum oldu ki, Göksəl Gülbəyin bu məsələlərdə heç bir əli yoxdur. Görüşdə N.Quliyev buna tam əmin oldu. Qərara gəlindi ki bundan sonra hər iki ölkənin ümumi maraqları naminə birgə fəaliyyəti davam etdirsinlər".

***Məhəmmədəli QƏRİBLİ***

***P.S. "Bakı-Xəbər" münaqişə tərəflərinin bir araya gəlməsi ilə bağlı eksklüziv fotonu təqdim edir.***

**Aprelin 9-da Strasburqda Avropa Şurasının Parlament Assambleyasının yaz sessiyası çərçivəsində AŞ PA-nın Monitorinq və Hüquqi Məsələlər və İnsan Hüquqları komitələri Azərbaycanda "siyasi məhbus" problemi ilə bağlı dinləmələr təşkil ediblər. Dinləmələrin kifayət qədər sərt keçdiyi bildirilir.**



*"Həmin beynəlxalq qurumlar düşünməlidirlər ki, Azərbaycanla təhdid, şərt dili ilə danışmaq heç bir fayda vermir"*

# 50-dən çox mübahisəli məhbus azad edilsə də, AŞ PA Azərbaycana hələ də "qərəz bucağından" baxır...

***Rauf Zeyni:*** *"Hətta həbsxanada olan bütün dustaqları açıb buraxsalar belə, onlar yenə prosesi tənqid edəcəklər"*

Həmin iclasda hətta hazırda Hollandiyada mühacir həyatı yaşayan hüquq müdafiəçisi Leyla Yunusun iştirakı və çıxış etməsi diqqətdən yayınmayıb. Onunla yanaşı, digər hüquq müdafiəçisi Rəsul Cəfərov və "ReAL" partiyasının sədri İlqar Məmmədov da hakimiyyəti məhz bu mövzuda sərt tənqid ediblər.

Müzakirələr zamanı Azərbaycanın AŞ PA-dakı nümayəndə heyətinin sədri Səməd Seyidov müzakirə iştirakçılarını qeyri-obyektivlikdə və siyasi ambisiyalarda ittiham edib. O, toplaşanları Azərbaycanda siyasi təqiblər barədə iddialara inanmamağa çağırıb: "Bəli, Azərbaycanda siyasi məhbuslar var - onlar Ermənistanın işğal etdiyi rayonlardan olan 1 milyon qaçqınlardır".

Azərbaycanla Avropa İttifaqı arasında sazişin imzalanması ərəfəsində belə bir sərt dinləmələrin keçirilməsi ciddi suallar yaradıb. Ən maraqlısı isə budur ki, hətta bəzi radikal mövqeli QHT və beynəlxalq təşkilatların siyahısında adları "siyasi məhbus" kimi qeyd edilən şəxslərdən 50 nəfəri ölkə başçısının imzaladığı son əfv sərəncamı ilə azadlığa buraxılıb. Belə olan təqdirdə, AŞ PA-da analoji məzmunda dinləmənin təşkili və hakimiyyəti sərt tənqid etməyə nə kimi əsas vardı? Bunu AŞ PA-nın növbəti qərəzi saymaq olarmı?

**Milli Qeyri-Hökumət Təşkilatları Forumunun prezidenti Rauf Zeyni qəzetimizə açıqlamasında bildirdi ki, bu cür müzakirələrin əsasında bir qərəz durur:** "Artıq bu şəbəkə hamıya bəllidir. Hətta həbsxanada olan bütün dustaqları açıb buraxsalar belə, onlar yenə prosesi tənqid edəcəklər. Çünki pulları bundan çıxır. Mən çox təəssüf edirəm ki, bu cür məsələlərdə AŞ PA kimi ciddi qurum onlara havadarlıq edir, geniş tribuna verir. Azərbaycan Prezidenti son dövrlər ərzində görün hansı addımları atır. Müxtəlif sahələri əhatə edən bu islahat əhalinin müxtəlif təbəqələri tərəfindən dəstəklənir. Ən ciddi dəstəklənən addımlardan biri də ölkə başçısının imzaladığı son əfv sərəncamı oldu. Elə məhz həmin dairələrin siyahısında problemli məhbuslar kimi qeyd edilən 50 nəfər azad edildi. Əslində, bu adamlar atılan addımı təqdir etməlidirlər. Bu yaxınlarda gördünüz ki, Fransanın nüfuzlu sorğu şirkəti olan "Opinion Way" ölkə rəhbərinin birillik fəaliyyətini necə yüksək dəyərləndirdi. Bütün bunlara baxmayaraq, bir qrup adam var ki, Azərbaycana qarşı ancaq neqativ işlərlə məşğul olur. Biz 20 ildir bunun şahidi oluruq. Eyni adamlar və eyni qurumlar bu işlə məşğuldurlar. Onların gördüyü işlər Azərbaycan dövlətini heç düşündürmür. Biz ancaq öz inkişafımız barədə düşünürük. Həmin beynəlxalq qurumlar düşünməlidirlər ki, Azərbaycanla təhdid, şərt dili ilə danışmaq heç bir fayda vermir. Əmin olun ki, Prezident kimisə əfv edirsə, bunu humanizm prinsipinə əsaslanaraq edir. Hansısa dairələrin təzyiqi, şərti burada keçərli ola bilməz. Bunlar artıq anlamalıdırlar ki, Azərbaycanın gəlib çatdığı inkişaf səviyyəsi onunla təhdidlə danışmağa imkan vermir.

Bizimlə yalnız normal əməkdaşlıq dilində danışmaq olar. Hər halda, həbsdə qalan insanların taleyi bizim üçün daha önəmlidir, nəinki xaricdəkilərə".

***Məhəmmədəli QƏRİBLİ***

# Paşinyan İrəvanda Tonoyanın "yeni işğallar" fikrini dəstəklədi, Strasburqda sözünü dəyişdi - bir başda iki ağıl...

**Ermənistanın baş naziri Nikol Paşinyan Azərbaycan Prezidenti ilə Vyanada keçirdiyi ilk rəsmi görüşdən cəmi 3 saat sonra müdafiə naziri David Tonoyanın verdiyi "yeni ərazilərin işğalı üçün yeni müharibə" açıqlamasında və Tonoyanın bu bəyanatını dəstəkləməsində sülhlə nizamlanma üçün heç bir ziddiyyət görmür.**

*"Ermənistan müstəqil olmadığından, müstəqil siyasət yeritmək, dediyinin üzərində durmaq iqtidarında deyil"*

## Əli Orucov: *"Paşinyanın fikirləri onun bu qurum qarşısında özünü rəzil duruma salmaqdan başqa bir şey deyil"*

Erməni KİV-i xəbər verir ki, bu barədə Paşinyan Strasburqa səfəri çərçivəsində Avropa Şurasının baş katibi T.Yaqlandla görüşdən sonra keçirdikləri birgə mətbuat konfransında deyib.

İrəvanda olarkən Azərbaycana qarşı müharibə çağırışı edən və destruktiv bəyantları ilə Dağlıq Qarabağ münaqişəsinin sülhlə nizamlanmasına kölgə salan Paşinyan Strasburqda özünü avropalılara "sülhpərvər" imicdə göstərməyə çalışıb. Bu mənada, o, fikirlərində bir qədər dəyişiklik edib: "Səslənən ifadələr, sadəcə, mövcud vəziyyətin şərhidir. Ermənistan tərəfinin yeganə təklifi bir-birimizə qarşı güc tətbiqi ilə müraciət etməyi dayandırmaqdır. Biz Ermənistanla Azərbaycan arasındakı münasibətlərdə təhdid dilindən istifadəni dayandırmalıyıq. Və bizim məqsədimiz cəmiyyətlərimizi müharibəyə yox, sülhə hazırlamaqdır. Əgər biz bunu etsək, onda bizdə tamam fərqli vəziyyət olacaq".

Halbuki, bundan əvvəl Paşinyan tamamilə fərqli fikirlər səsləndirmişdi. Demişdi ki, Tonoyan başqa cür açıqlama səsləndirsəydi, onu işdən azad edərdi: "Əgər Tonoyan başqa bir şey desəydi, mən onu müdafiə naziri postundan istefaya göndərərdim. Hələlik problem həll olunmayıbsa, bir dövlət və xalq kimi vəziyyətin istənilən inkişafına hazır olmalıyıq". Tonoyanın bu bəyanatının onunla razılaşdırılıb-razılaşdırılmaması sualına cavab verən Paşinyan onu da qeyd etmişdi ki, müdafiə naziri birbaşa olaraq baş nazirin tabeliyindədir.

Bu ziddiyyətli açıqlamalar bir daha Paşinyanın riyakarlığını, sülh danışıqlarında səmimi olmamasını göstərir. O, bu minvalla, özünü sülhpərvər dövlət başçısı kimi Avropaya təqdim etməklə, əslində, münaqişənin həllini uzatmağa çalışır.

Bütün hallarda, Paşinyanın bu riyakarlığını ekspertlər necə dəyərləndirirlər?

**Sözügedən məsələni "Bakı-Xəbər"ə şərh edən AMİP funksioneri Əli Orucovun fikrincə, bununla Paşinyan beynəlxalq qurumları aldatmaq, Ermənistanın işğalçılıq siyasətini malalamaq istəyir:** "Ermənistanın baş naziri Paşinyanın tez-tez fikirlərini dəyişməsi, dediyi sözlərdən imtina etməsi birinci dəfə deyil baş verir. Son da olmayacaq. Onun təzadlı yanaşmaları onu göstərir ki, Paşinyanın sistemli siyasət yürütmək imkanları da yoxdur. Yəni yalançının yaddaşı olmadığı kimi, erməni baş naziri həm daxili, həm də xarici faktorlar gülünc hala salıb.



O bundan əvvəl də hakimiyyətinin ilk dönəmlərində populistcəsinə bəyanatlar verirdi. Deyirdi Ermənistan danışıqlar prosesindən çıxacaq və separatçı rejim tərəf kimi sülh prosesinə qatılmalıdır. Yaxud KTMT ilə bağlı bir qədər hədə-qorxu və şantaj ruhlu çıxışlar etdi, Moskvanı hədələməyə qalxdı. Ancaq həmin bəyanatlar hava ilə doldurulmuş şar kimi bir andaca partladı. Səsini də bircə Paşinyan eşidə bildi. Bu gün belə iddialı bəyanatlar verən Paşinyan həm KTMT-də diqtə olunanları icra etməkdədir, həm də Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı davam edən sülh prosesində iştirak etməkdədir. Göründüyü kimi, Ermənistan müstəqil olmadığından, müstəqil siyasət yeritmək, dediyinin üzərində durmaq iqtidarında deyil. Paşinyan Strasburqa səfəri çərçivəsində Avropa Şurasının baş katibi T.Yaqlandla görüşdən sonra keçirdikləri birgə mətbuat konfransında riyakar açıqlamalar verdi. Bununla belə, Paşinyanın fikirləri onun bu qurum qarşısında özünü rəzil duruma salmaqdan başqa bir şey deyil. Bu təkcə Paşinyanlıq məsələ deyil. Ümumilkdə, ermənilər özlərinin böyük güclər qarşısında həmişə əsl yırtıcı simalarını gizlətməyə çalışırlar. Özlərini yazıq, əzabkeş, sülhpərvər, mədəni xalq kimi tanıtmağa çalışırlar. Doğrudur, bu xüsusiyyətlər onlara müəyyən uğurlar gətirib, amma həmişə bu uğurlar onları gözükölgəli və başıqapazlı edib. Təbii ki, Ermənistan tərəfi Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə maneçilik törədir və destruktiv mövqe nümayiş etdirir.

Ona görə buna son qoyulmalıdır. Tərəflərin sülhə hazırlanması kimi mücərrəd yanaşmalar ermənilərin xeyrinədir. Azərbaycanı xalqını sülhə hazırlamağa ehtiyac yoxdur".

***Vidadi ORDAHALLI***

# Qaregin Dünya dini liderlərinin Bakı sammitində...

**Xəbər verildiyi kimi, Prezident İlham Əliyev Dünya dini liderlərinin II Bakı sammitinin keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsinin yaradılması haqqında sərəncam imzalayıb.**



*"II Qareginin 2010-cu ildə Dünya dini liderlərinin Bakı sammitində iştirakını nəzərə alsaq, ehtimal olunur ki, oktyabrda keçiriləcək sammitdə də iştirak edə bilər"*

## Rəhimə Dadaşova: *"... yaxın müddət ərzində dəvət olunub-olunmaması bəlli olacaq"*

Sərəncamda bildirilir ki, Azərbaycanda müasir dövrdə millətlərarası münasibətlər və din sahəsində həyata keçirilən dövlət siyasəti beynəlxalq hüquq normalarına və zəngin tarixi köklərə əsaslanır.

Dünyanın multikulturalizm mərkəzlərindən biri kimi tanınan Azərbaycanda sivilizasiyalararası və dinlərarası dialoqa töhfə verən bir sıra nüfuzlu beynəlxalq tədbirlərin keçirilməsi artıq ənənəyə çevrilib. Qeyd edək ki, beynəlxalq ictimaiyyəti narahat edən humanitar problemlər 2008-ci ildən etibarən mədəniyyətlərarası dialoqun inkişaf etdirilməsini nəzərdə tutan "Bakı prosesi" çərçivəsində müzakirə olunur, dünyanın tanınmış dini liderləri, ictimai-siyasi xadimləri, dövlət rəsmiləri, nüfuzlu alim və ziyalıları arasında səmərəli fikir mübadiləsi aparılır.

Məlumat üçün bildirək ki, 2010-cu ildə keçirilən Dünya dini liderlərinin I Bakı sammitinə ermənilərin katolikosu II Qaregin də dəvət edilmişdi və sammitə qatılmışdı.

Maraqlıdır, Dünya dini liderlərinin növbəti Bakı sammitinə ermənilərin katolikosu II Qaregin də dəvət olunacaqmı? Ümumiyyətlə, adıçəkilən şəxsin məlum sammitdə iştirakı nəzərdə tutulurmu?

**Suallarımıza cavab almaq üçün Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) mətbuat xidmətinin rəhbəri Rəhimə Dadaşovaya müraciət etdik.** O, "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, 2010-cu ildə keçirilən Dünya dini liderlərinin I Bakı sammitinə II Qaregin dəvət olunmuşdu: "Ancaq indi sammitin keçirilməsi ilə əlaqədar olaraq Prezidentin sərəncamı ilə təşkilat komitəsi yaradılıb. Məlumdur ki, təşkilat komitəsi yeni yaradılıb. Yaxın müddət ərzində tədbirlər planı və dəvət olunacaq şəxslərin siyahısı hazırlanacaq. Siyahı hazırlanandan sonra II Qareginin dəvət olunub-olunmaması bəlli olacaq".

**Həmsöhbətimiz onu da bildirdi ki, ermənilərin katolikosu II Qareginin 2010-cu ildə Dünya dini liderlərinin Bakı sammitində iştirakını nəzərə alsaq, ehtimal olunur ki, oktyabrda keçiriləcək sammitdə də iştirak edə bilər.**

***Günel CƏLİLOVA***

# Makron ən böyük Türk-Azərbaycan düşmənçiliyini etdi - Fransanın Azərbaycanda iqtisadi maraqları isə...

**Türkiyə xarici işlər naziri Mövlud Çavuşoğlu Antaliyada keçirilən NATO Parlament Assambleyasının 99-cu RoseRoth seminarı və Aralıq dənizi Yaxın Şərq Xüsusi Qrupunun birgə yığıncağında Fransa prezidenti Emmanuel Makronun partiyasından deputat Sonia Kriminin qondarma "erməni soyqırımı" açıqlamasına sərt reaksiya verib.**

Erməniləri özünün "kiçik bacısı" hesab edən Fransanın "erməni soyqırımı"nın tanıdılması istiqamətində həyata keçirdiyi zərərli proseslər bu ölkənin təqviminə 24 aprelin "erməni soyqırımı qurbanlarının" xatirə günü kimi daxil edilməsilə nəticələnib.

Belə ki, Fransa Prezidenti Emmanuel Makron 24 apreli "erməni soyqırımı qurbanlarının" xatirə günü elan edib. Onun bu qərarı Fransanın rəsmi qəzetində dərc edilib. Qeyd edək ki, o, bununla da prezident seçkilərindən öncə, həmçinin, bu ilin fevralında Fransa Erməni Təşkilatları Şurasının tədbirində verdiyi sözü tutub. Fransa Prezidentinin qəbul etdiyi bu zərərli qərarı Azərbaycana, eləcə də Türk dünyasına atılan bir daş hesab etmək olar.

Fransada 24 aprelin "erməni soyqırımı qurbanlarının" xatirə günü elan edilməsinin Azərbaycan-Fransa münasibətlərinin pisləşməsinə gətirib çıxaracağı şübhə doğurmur. Bundan başqa, Azərbaycan və Fransa arasında bir sıra sahələrdə, o cümlədən də iqtisadi, ticarət sahəsində əməkdaşlıq əlaqələri mövcuddur, "Total" başda olmaqla ölkəmizdə Fransanın bir neçə iri şirkəti fəaliyyət göstərir.

Fransanın bu zərərli addımından sonra Fransa-Azərbaycan əlaqələri hansı şəkildə olacaq, eyni zamanda, bu, Azərbaycan hökumətinin Fransa şirkətlərinin fəaliyyəti məsələsinə yenidən baxmasına səbəb olacaqmı?

**Tanınmış politoloq Qabil Hüseynli məsələni "Bakı-Xəbər"ə şərh edərkən bildirdi ki, Makronun bu zərərli qərarı nəinki Azərbaycan-Fransa, hətta Türkiyə-Fransa münasibətlərinə də mənfi təsir edəcək.**

"Makronun verdiyi qərar çox təhlükəli bir addımdır. Fransızlar qondarma erməni soyqırımı ilə bağlı illərdir həm çox zərərli, həm də təhlükəli addımlar atmaqda davam edirlər. Əvvəllər "soyqırımı" tanıdılar, sonra "soyqırımı" ölkə ərazisində tanımaq istəməyənlərə qarşı qanunvericilikdə cinayət tərkibi yaradan maddələr tətbiq etdilər. Sonra isə Ana Yasa Məhkəməsi bu maddələri aradan qaldırdı, rədd etdi. İndi isə 24 apreli "erməni soyqırımı qurbanlarının" xatirə günü elan ediblər. Ümumiyyətlə, fransızlar çox millətçi və tarixə qarşı çox soyuqqanlı davranan bir xalqdır. Özlərinin tarixinə baxsanız görərsiniz ki, onun hər səhifəsi ötən əsrin 70-ci illərinə qədər qanla yazılıb. 1961-62-ci illərdə fransızlar Əlcəzairdə başlayan milli-azadlıq hərəkatını qan içində boğdular, 1,2 milyona yaxın əlcəzairlini isə, sözün həqiqi mənasında, vəhşicəsinə öldürdülər. Bu elə uzaq tarixdə baş verməyib. Bu faciənin, audio, videomateriallları, şahidləri var. Bilmirəm, bununla bağlı məhkəmə qərarı olub, yoxsa olmayıb. Ancaq bu hadisəni fransızların ərəblərə qarşı soyqırımı kimi qəbul etmək olar. Əlcəzairlilər qeyrət göstərib bu materialları toplayaraq məhkəməyə təqdim etsələr, fransızlara qarşı ciddi iddia qaldıra bilərlər. Bundan başqa, başqa digər müstəmləkə ölkələrində, xüsusən də Mərkəzi Amerika ölkələrində fransızlar hindulara qarşı soyqırımlar törədiblər. Bir sözlə, özünün tarixi başdanbaşa başqa xalqlara qarşı soyqırımlar törətmək faktları ilə dolu olan bir xalq başqa bir xalqın tarixində 100 il bundan əvvəl baş verdiyi əsassız olaraq iddia edilən, sübut olunmayan bir məsələni "soyqırım" hesab edir" - deyə bildirən Q.Hüseynlinin sözlərinə görə, Fransa Prezidentinin bu qərarına qarşı Türkiyə Millət Məclisi də fransızların əlcəzairlilərə qarşı həyata keçirdiyi soyqırımı gündəmə gətirə bilər.

"Tarixə baş vurmadan, tarixlə hesablaşmadan fransızların, xüsusən də Makronun bu qeyri-ciddi və səfeh addımı Fransa-Türkiyə münasibətlərinə də zərər vuracaq, münasibətlərdə gərginlik yaranacaq. Sabah Türkiyə Böyük Millət Məclisi fransızların əlcəzairlilərə qarşı törətdiyi soyqırımla bağlı bir müddəa qəbul etsə, buna təəccüblənmək lazım deyil. Çünki əlcəzairlilər bunu etmirsə və onların əvəzinə bunu Türkiyə edəcəksə, bu, Fransaya qarşı tamamilə yaxşı bir cavab olar.

Ermənilər Azərbaycan ərazilərinin 20 faizini işğal edib, Xocalıda, Qaradağlıda, Qazaxın Bağanis-Ayrım kəndində soyqırımlar törədiblər. Lakin bu soyqırımlara heç reaksiya verən yoxdur. Üstəlik, də işğal edilmiş ərazilərin həlli məsələsi ən çətin dövrünü yaşayır. Əlbəttə, Makronun bu addımı Azərbaycan-Fransa münasibətlərinə də ciddi zərər gətirəcək. Onsuz da münasibətlər qaydasında deyil. Hazırda Azərbaycanla Fransa arasında münasibətlər çox soyuqdur. Hələ ki, bu münasibətlərin düzəlməsi istiqamətində hər hansı bir perspektiv görünmür. Azərbaycanda fəaliyyət göstərən Fransa şirkətlərinə gəlincə, deyim ki, indi hələ onlara toxunmaq imkanımız yoxdur. Azərbaycan inkişaf etməkdə olan ölkədir. "Əsrin kontrakti"nda iştirak edən fransız şirkətlərini həmin kontraktlardan çıxarmaq, demək olar ki, mümkünsüzdür. Əvvəla onlar xeyli bonus yatırıblar, texniki qazma işləri aparıblar, mühəndis, fəhlə heyəti gətiriblər və s. Ona görə də bu məsələlərdə onları ölkədən çıxarmaq üçün uzun məhkəmə prosesi tələb olunur. Ancaq Azərbaycanla Fransa arasında ticarət əlaqələri var. Bu hadisədən sonra Azərbaycanın Fransa ilə ticarət əlaqələrini ya tamam kəsmək, ya da minimuma endirmək olar. Onlar onsuz da məhsullarını Azərbaycana çox baha qiymətə satırlar. Fransa Azərbaycana hərbi sahədə əməkdaşlıq təklifi etmişdi, Azərbaycan bu təkliflərin heç birini qəbul etməyib. Yəni Azərbaycan-Fransa münasibətləri soyuq mərhələdədir"- deyə Q.Hüseynli vurğuladı.

*Qabil Hüseynli: "Makronun bu addımı Azərbaycan-Fransa münasibətlərinə də ciddi zərər gətirəcək"*




*"Sabah Türkiyə Böyük Millət Məclisi fransızların əlcəzairlilərə qarşı törətdiyi soyqırımla bağlı bir müddəa qəbul etsə, buna təəccüblənmək lazım deyil"*

***İradə SARIYEVA***

# Çavuşoğlu Fransanı yıxıb-sürüdü, Makronun deputatları zalı tərk etdi - "Həddinizi bildirəcəyik"...

**Türkiyə xarici işlər naziri Mövlud Çavuşoğlu Antaliyada keçirilən NATO Parlament Assambleyasının 99-cu RoseRoth seminarı və Aralıq dənizi Yaxın Şərq Xüsusi Qrupunun birgə yığıncağında Fransa prezidenti Emmanuel Makronun partiyasından deputat Sonia Kriminin qondarma "erməni soyqırımı" açıqlamasına sərt reaksiya verib.**




Baki-xeber.com xəbər verir ki, Çavuşoğlu Fransa deputatlarına ölkələrinin Ruanda, Əlcəzairdə törətdiyi soyqırımları xatırladıb.

Çavuşoğlu deyib: "Fransa kimi ölkələr başqa ölkələri tənqid edəcəklər, aşağılayacaqlar və istədikləri qərarı istədikləri kimi verəcəklər. Bunun qarşılığında Türkiyə və ya başqa bir ölkədən tənqid gəldiyində şoka düşəcəklər. Beynəlxalq hüquq mövzusunda Türkiyəyə dərs verməyə çalışırlar. Hüquqdan Türkiyəyə dərs verməyə çalışırsınız, burada mənim söylədiyimə belə dözüm göstərmirsiniz, ifadə azadlığından bəhs edirsiniz...

Makronun qəbul etdiyi qərar Fransa Konstitusiya Məhkəməsinin qərarları ilə zidd deyilmi? Ziddir. Fransanın qərarı Avropa İnsan Hüquqları Məhkəməsinə zidd deyilmi? Ziddir.

…Soyqırım və tarix mövzusunda Türkiyəyə dərs verə biləcək ən son ölkə Fransadır. Çünki Ruanda, Əlcəzairdə olanları unutmadıq. Fransa əvvəl öz qaranlıq tarixinə baxsın, Türkiyəyə dərs verməyə qalxmasın. Siz yuxarıdan baxmağa davam edin, biz də sizə bu şəkildə həddinizi bildirməkdə davam edəcəyik. Qarşınızda artıq keçmiş Türkiyə yoxdur, layiqli cavabınızı alacaqsınız. Siz özünüzü üstün görməyə davam edin, bunu qəbul etməyən, doğruları söyləyən bir Türkiyə var".

Çavuşoğlu, onu alqışlayan fransız millət vəkillərinə sərt reaksiya verərək "Nə qədər nəzakətli olduğunuzu görürük. Nə qədər sayğılı olduğunuzu görürük. Həqiqətləri eşitmək istəmirsiz. Ancaq buna alışacaqsız, başqa seçiminiz yoxdur" deyib. Çavuşoğlunun sözlərindən sonra Fransanın iki qadın deputatı zalı tərk edib.

***Baki-xeber.com***

# Bakı məktəblisinin intiharına görə müqəssirlər dairəsi genişləndi

## Ceyhun Bayramov şagird Elinanın intiharının daxili araşdırma materiallarını təqdim etdi...

**VIII sinif şagirdi Elina Hacıyevanın intihar etdiyi 162 saylı məktəbin direktoru və müavini işdən azad edilib. "Trend"in məlumatına görə, bunu təhsil naziri Ceyhun Bayramov mətbuat üçün Bakı şəhəri Etibar Əliyev adına 162 nömrəli tam orta məktəbdə 4 aprel 2019-cu il tarixində baş vermiş hadisə ilə bağlı aparılmış xidməti araşdırmanın nəticələrinin açıqlanmasına dair brifinqdə deyib.**



Nazir qeyd edib ki, baş vermiş hadisənin təfərrüatlarının dərhal araşdırılması məqsədilə Bakı Şəhəri üzrə Təhsil İdarəsində komissiya yaradılıb, Bakı şəhər Prokurorluğunun məlumatına əsasən, faktla bağlı Cinayət Məcəlləsinin 125-ci (özünü öldürmə həddinə çatdırma) maddəsi ilə cinayət işi başlanıb. Xidməti araşdırmanın ilkin nəticələrinə əsasən, məktəbin direktoru Abbasova Sevinc Kamil qızı xidməti araşdırma müddətində vəzifəsindən kənarlaşdırılıb:

"Eyni zamanda hadisənin baş vermə şəraitinin, səbəblərinin və digər təfərrüatlarının kütləvi informasiya vasitələrində və sosial şəbəkələrdə geniş müzakirə edildiyini, bəzi hallarda bir-birinə zidd olan və mötəbərliyi yoxlanılmamış məlumatlar əsasında fərziyyə və ehtimalların irəli sürüldüyünü, baş vermiş hadisənin həssaslığını və faktla bağlı cinayət işi üzrə istintaq tədbirlərinin aparıldığını nəzərə alaraq, müvafiq komissiya tərəfindən aparılan xidməti araşdırma başa çatanadək nəticələrin ictimaiyyətə açıqlanması zərurəti yaranıb". C.Bayramovun sözlərinə görə, aparılmış xidməti araşdırma nəticəsində Bakı şəhəri 162 nömrəli tam orta məktəbin direktoru (Abbasova Sevinc Kamil qızı), tərbiyə işləri üzrə direktorun müavini (Məhərrəmova Lalə Arif qızı), sinif rəhbəri (Mehdiyeva Çimnaz Hacıağa qızı) və məktəbin psixoloqunun (Ağayeva Könül İsmayıl qızı) əmək müqaviləsində və aidiyyəti normativ sənədlərdə nəzərdə tutulmuş bir sıra vəzifə funksiyalarının icrasını təmin etmədikləri məlum olub. Belə ki, məktəbin VIII sinif şagirdi Hacıyeva Elina Ədalət qızı və onun valideynləri ilə müvafiq izahat işlərinin aparılması lazımi səviyyədə təşkil edilməyib, psixoloqun rəyinə əsasən vaxtaşırı olaraq özünə qapanan şagirdə xüsusi həssaslıqla yanaşılmayıb, şagirdlə əvvəllər olan ünsiyyətlərdən, onun davranış xüsusiyyətləri, ruhi-emosional vəziyyətinin səbəbləri ilə dərindən maraqlanılmayıb, ailə üzvləri ilə yaxından əməkdaşlıq edərək ona psixoloji-mənəvi dəstək göstərilməsinə laqeyd yanaşılıb. Şagirdin sinfə və ya məktəbə bu və ya digər səbəbdən uyğunlaşmaması, bunun nəticəsində onun digər şagirdlərlə, sinif rəhbəri və müəllim heyəti ilə səmimi ünsiyyətinin qurulmaması, baş verənlərin şagirdin yeniyetməlik dövrünə təsadüf etdiyindən davranışına təsir etməsi təlim-tərbiyə prosesində nəzərə alınmayıb. Hadisənin baş verdiyi gün məktəb rəhbərliyinin məsuliyyətsizliyi səbəbindən məktəbdə növbətçilik təmin olunmayıb, bununla yanaşı, məktəb rəhbərliyi hadisədən dərhal sonra adekvat və zəruri tədbirlərin görülməsini də təmin etməyib.

Nazir bildirib ki, xidməti araşdırmanın məlumatlarını nəzərə alaraq, Bakı şəhəri 162 nömrəli tam orta məktəbin direktoru və tərbiyə işləri üzrə direktorun müavini ilə əmək müqavilələrinə xitam verilməsi, şagirdin təhsil adlığı sinfin rəhbərinə qarşı müvafiq intizam tədbirlərinin görülməsi, məktəbin psixoloqunun işdən kənarlaşdırılması, məktəbə təcrübəli psixoloqun təyin edilməsi qərara alınıb.

Nazir qeyd edib ki, məktəb həyatını, bütövlükdə məktəbin müəyyən edilmiş hədəflərə yönələn fəaliyyətini təhsil prosesi iştirakçılarının qarşılıqlı əməkdaşlığını təmin etmədən təsəvvür etmək mümkün deyil. Təhsil prosesində keyfiyyətə nail olmaq üçün "məktəb-valideyn", "müəllim-şagird", "məktəb-müəllim-valideyn" əlaqələrinin düzgün tənzimlənməsi zəruri şərt hesab olunur: "Bu prosesdə hər bir tərəf öz məsuliyyətini dərk etməli, onu icra etməlidir. Məktəb rəhbərliyi təhsil müəssisəsində sağlam mənəvi-psixoloji mühitin formalaşması və sabit saxlanması, təhsilalanların sosial bacarıqlarının artırılması istiqamətində müəllim və valideynlərlə birlikdə müvafiq iş aparmalı, təlimdə çətinlikləri, emosional, davranış və digər problemləri olan təhsilalanlarla qrup və fərdi fəaliyyətlər planlaşdırmalı, psixoloji problemlərinin yaranma riski yüksək olan təhsilalanların ailə və sosial vəziyyəti ilə tanış olmalı, valideynlərlə mütəmadi görüşlər və maarifləndirmə tədbirləri keçirməli, sosial-məişət çətinlikləri olan təhsilalanların təhsili və inkişafının dəstəklənməsi məqsədilə məktəbəsaslı inkişaf planları hazırlamalı və ailələrlə birlikdə icra olunmasını təmin etməlidir". Tədbirdə, həmçinin, bu baxımdan məsələyə daha sistemli yanaşaraq, rayon (şəhər) təhsil şöbələrinin (idarələrinin), təhsil müəssisələrinin rəhbərlərinə sağlam mənəvi-psixoloji və təhlükəsiz mühitin yaradılması, təhsilalanlarda müsbət davranış modelinin formalaşdırılması, ailə-məktəb münasibətlərinin düzgün tənzimlənməsi, bu istiqamətdə məktəb rəhbərliyi və müəllim kollektivinin məsuliyyətinin artırılması istiqamətində zəruri tədbirlərin həyata keçirilməsinin, bu məsələlərlə bağlı ümumtəhsil müəssisələrində olan mövcud vəziyyətin təhlil edərək nəticələri barədə hesabatı, müvafiq sahədə aparılan işlərin təkmilləşdirilməsi ilə bağlı təkliflərin 30 gün ərzində Təhsil Nazirliyinə təqdim edilməsinin tapşırıldığı da bildirilib.



## Nazir bir sıra qəti cəza tədbirləri gördü...

Qeyd olunub ki, nazirlik tərəfindən bu sahədə bəzi yeniliklərin edilməsi planlaşdırılır, o cümlədən məktəbdə şagirdlər arasında münasibətlərin tənzimlənməsi, sağlam mühitin yaradılması istiqamətində ictimai müzakirələr və məsələyə diqqətin cəlb edilməsi çox vacibdir. Yeniliklər arasında həmçinin məktəbdə bu və ya digər zorakılığa məruz qalmış şagird və ya valideyn tərəfindən birbaşa olaraq təhsil idarəetmə orqanlarında bu mövzu ilə bağlı yaradılacaq "Qaynar xett"lərə müraciət etməsi imkanı yaradılacaq.

Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Baş Prokurorluğunun Mətbuat xidmətinin birgə yaydıqları məlumata görə, Bakı şəhəri, Səbail rayonu 162 nömrəli tam orta məktəbin 8-ci (r) sinif şagirdi, 2004-cü il təvəllüdlü Elina Hacıyevanın təhsil aldığı məktəbin üçüncü mərtəbəsindən özünü ataraq intihara cəhd etməsi faktı ilə bağlı Cinayət Məcəlləsinin 125-ci (özünü öldürmə həddinə çatdırma) maddəsi ilə cinayət işi başlanıb.

Cinayət işi üzrə ibtidai istintaqın davam etdirilməsi Bakı Şəhər Prokurorluğunda yaradılmış istintaq qrupuna tapşırılıb, E.Hacıyevanın təhsil aldığı məktəb və sinifin rəhbərliyi, habelə digər şahidlər müəyyən edilərək dindirilmiş, müxtəlif növ ekspertizalar təyin edilib.

Hazırda cinayət işi üzrə Elina Hacıyevanın ölümünün səbəbi və müddəti, təcili tibbi yardım xidmətinə vaxtında müraciət olunub-olunmaması, E.Hacıyevaya həkim briqadası tərəfindən yerində və xəstəxanada lazımi tibbi yardımın göstərilib-göstərilməməsi, müayinə və müalicənin diaqnoza uyğun qaydada aparılıb-aparılmaması, onun xəstəxanaya gec çatdırılması ilə ölümü arasında səbəbli əlaqənin olub-olmaması və sair əhəmiyyət kəsb edən halların aydınlaşdırılması üçün komisyon məhkəmə-tibb ekspertizası təyin edilib. Ekspertizanın keçirilməsində yüksək ixtisaslı, böyük elmi və iş təcrübəsi olan ekspertlərin iştirakının təmin edilməsi məqsədilə peşəkar mütəxəssislər cəlb olunub.

"Cinayət işi üzrə istintaqın obyektivliyinin təmin olunması, şahid dairəsinə qanunsuz təsir göstərilməsi ehtimalının aradan qaldırılması və hadisənin təfərrüatlarının araşdırılması məqsədilə təhsil nazirinin tapşırığına əsasən Bakı şəhəri üzrə Təhsil İdarəsinin əmri ilə yaradılmış xüsusi komissiya tərəfindən xidməti yoxlama aparılaraq məktəbin direktoru və tərbiyə işləri üzrə direktor müavini ilə əmək müqavilələrinə xitam verilməsi, şagirdin təhsil aldığı sinfin rəhbərinə qarşı müvafiq intizam tədbirlərinin görülməsi, məktəbin psixoloqunun işdən kənarlaşdırılması, məktəbə təcrübəli psixoloqun təyin edilməsi qərara alınıb"

Göstərilənlərlə yanaşı, Bakı Şəhər Prokurorluğu və Bakı Şəhəri üzrə Təhsil İdarəsinin 6 aprel 2019-cu il tarixli məlumatında kütləvi informasiya vasitələrində insanların heysiyyətinə toxunan əsassız məlumatların yayılmaması ilə bağlı xəbərdarlıq elan olunmasına baxmayaraq, bəzi internet saytlarında dərc edilmiş müxtəlif başlıqlı məqalələrdə tədris prosesinin normal həyata keçirilməsinə mənfi təsir göstərən yalan məlumatların, həmçinin, yayılması qanunla qadağan edilən informasiyaların daxil edilərək ictimai fikirdə çaşqınlıq yaranmasına səbəb olmaqla konkret faktlara əsaslanmayan, eləcə də yayılması qanunla qadağan edilən informasiyaların məqsədli şəkildə yayılması müəyyən edilib. Baş Prokurorluq tərəfindən bir daha kütləvi informasiya vasitələrinə və sadalanan pozuntulara yol verən şəxslərə, o cümlədən, sosial şəbəkə istifadəçilərinə mövcud qanunların tələblərinə riayət etmələrinə dair xəbərdarlıq olunur ki, E.Hacıyevanın özü, ailəsi və yaxın ətrafı ilə bağlı qeyri-dəqiq, düzgünlüyü yoxlanılmadan paylaşılmış, cinayət işi üzrə həqiqətə uyğun olmayan, istintaq sirri təşkil etməklə, konfidensial informasiya hesab olunan məlumatların yayılmasının və digər istənilən qanunazidd hərəkətlərin qarşısının alınması üçün monitorinq həyata keçirilərək, bu cür hərəkətlərə yol verən şəxslər barəsində ən ciddi məsuliyyət tədbirlərinin görülməsi təmin ediləcək. Hazırda cinayət işi üzrə bütün xüsusatların tam və hərtərəfli araşdırılmaqla qanun pozuntularına yol vermiş təqsirli şəxslərin dairəsinin müəyyənləşdirilməsi istiqamətində digər zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

*Xəbər xidməti*

**Məlum olduğu kimi, erməni KİV-i Milli Şuranın Müdafiə və təhlükəsizlik məsələləri üzrə daimi komissiyasının iclası barədə sensasion məlumat yayıb. Məlumatda qeyd olunur ki, iclas 27 oktyabr 1999-cu il hadisələrinə həsr olunub. İclasda Ermənistanın baş naziri Nikol Paşinyaının yaxın silahdaşı, hakim partiyanın deputatı, parlamentin Müdafiə və təhlükəsizlik məsələləri komitəsinin sədri Andranik Köçəryan sensasion açıqlama verib.**

# Ermənistandan Putinə "qatil" ittihamına rəsmi Moskvanın cavabı gecikir - dilavər Zaxarovanın da səsi çıxmır...

***Mübariz Əhmədoğlu:** "Ola bilsin publik reaksiya verməsinlər, amma münasibət olacaq"*

***Əli Əliyev:** "Rusiyanın hələ də bu məsələyə reaksiya verməməsi razılaşdırılmış oyundur"*

O, Putini sözügedən hadisələrlə bağlı ittiham edib: "27 oktyabr cinayəti açılıb. Sifarişçilər məlumdur. Bu cinayəti Vladimir Putinin tapşırığı ilə Rusiya xüsusi xidmət orqanları törədiblər".

Məlumat üçün bildirək ki, o zaman bir neçə terrorçu Ermənistan parlamentinin binasına daxil olaraq, spiker Karen Dəmirçyanı, baş nazir Vazgen Sərkisyanı, spikerin müavinləri Yuri Baxşyanı və Ruben Miroyanı, operativ məsələlər üzrə nazir Leonard Petrosyanı, deputatlar Armenak Armenakyanı, Henrix Abramyanı və Mikael Kotanyanı güllələyiblər.

Məlum hadisə baş verəndə V.Putin Rusiyanın baş naziri idi. Artıq o, avqust ayından bu vəzifəyə təyin olunmuşdu. Ondan əvvəl isə Putin Federal Təhlükəsizlik Xidmətinin rəisi idi.

Məsələnin maraqlı tərəfi odur ki, Rusiya hələ də buna hansısa rəsmi münasibət bildirməyib. Nəzərə alsaq ki, bu fikirləri Ermənistanın hansısa müxalifət partiyasının nümayəndəsi deyil, hakim partiyanın deputatı səsləndirib, o zaman buna bir reaksiya olmalı idi. Ancaq Rusiyadan buna reaksiya yoxdur. Digər tərəfdən, adətən, Rusiya XİN təmsilçisi Mariya Zaxarova keçirdiyi ənənəvi mətbuat konfranslarında, demək olar, istənilən məsələyə toxunur, müəyyən fikirlər səsləndirir. Qəribədir ki, Zaxarova da indiyə qədər sözügedən məsələyə hansısa reaksiya verməyib. Bütün hallarda, Rusiyadan niyə bununla bağlı reaksiya yoxdur?

**Məsələyə münasibət bildirən Siyasi İnnovasiya və Texnologiyalar Mərkəzinin rəhbəri Mübariz Əhmədoğlunun sözlərinə görə, hələ bu məsələ yeni olduğu üçün reaksiya gecikir:** "Əvvəla iki gündür belə bir məlumat yayılıb. Bu o demək deyil ki, Rusiyanın buna rəsmi reaksiyası olmayacaq. Fikrimcə, reaksiya mütləq olacaq. Zaxarovanın da bunun üstündən sükutla keçməsi, görünür,



müəyyən səbəblərlə bağlıdır. Ancaq onun keçirdiyi mətbuat konfransında bununla bağlı ona sual verilsə, Zaxarovanın cavabı olacaq. Hesab edirəm ki, bizim Moskvada olan media təmsilçilərimiz bununla bağlı Zaxarovaya sual ünvanlamalıdırlar. Bütün bunlara rəğmən, Rusiyanın buna hansısa formada reaksiyası olacaq. Ola bilsin publik reaksiya verməsinlər, amma münasibət olacaq. Başqa bir tərəfdən, ola bilsin, Rusiyanın bu məsələyə reaksiyası sərt olsun. O səbəbdən bu gecikir".

**Vətəndaş və İnkişaf Partiyasının sədri Əli Əliyevin fikrincə, Rusiyanın bu məsələyə reaksiya verməməsi razılaşdırılmış oyuna bənzəyir:** "Ermənistanda bu kimi məsələlər əlaqəli şəkildə təşkil olunur. Çünki bu ölkə Rusiyanın forpostudur. Ermənistanda rollar bölünüb. Bəzən hakimiyyətin deyə bilmədiyini müxalifət deyir. Andranik Köçəryanın Putinlə bağlı açıqlamalarına gəldikdə isə, Ermənistanda hakimiyyətin müxtəlif qanadları var. Ermənistan hakimiyyəti şüurlu surətdə öz komandasını iki hissəyə bölüb. Bu yolla Rusiyaya təzyiq edirlər ki, bu ölkə Ermənistana daha çox güzəşt etsin. Yəni Putinə təzyiq etməklə çalışırlar ki, daha çox güzəşt qoparsınlar. Ancaq Rusiyanın hələ də bu məsələyə reaksiya verməməsi razılaşdırılmış oyundur. Fikrimcə, Paşinyanın komandasından olan bir şəxsin belə söz deməsi hakimiyyətlə razılaşdırılıb. Formal görüntü yaradırlar ki, guya Paşinyan hakimiyyəti müstəqil siyasət yeridir. Fikrimcə, bu səbəbdən reaksiya yoxdur".

*Vidadi ORDAHALLI*

---

**Avropa Şurasının baş katibi Torbyorn Yaqland Ermənistan baş naziri Nikol Paşinyanla görüşüb. O, görüşdən sonra mətbuata açıqlamasında Avropa Şurasının insan hüquqları üzrə komissarına Dağlıq Qarabağa səfər hüququnun verilməsinin vacibliyi ilə bağlı fikir səsləndirib:**

# AŞPA-nın insan haqları komissarı qondarma "DQR"də - Yaqlandın "təpələr arxasındakı" ermənipərəst marağı...

***Fikrət Sadıqov:** "Bu, beynəlxalq hüquq normalarına zidd bir yanaşmadır"*



*"Hesab edirəm ki, Yaqlandın açıqlaması erməni lobbisinə yaxşı görünmək məqsədi daşıyır"*

"Mülki bir komissara icazə verilməməsi yolverilməzdir. "Boz zonalar" komissarlığa açıq olmalıdır. Bu boz sahələrdən biri Qarabağdır. Avropa İttifaqı hökuməti bu sahədə humanitar monitorinq məqsədilə komissara ziyarət etmək səlahiyyətini vermək üçün bəyanat verməlidir".

Azərbaycan Xarici İşlər Nazirliyi buna münasibət bildirib. XİN-in mətbuat katibi Leyla Abdullayeva Ermənistan KİV-də yayılmış bu məsələ ilə bağlı açıqlamasında deyib ki, Azərbaycanın sözügedən məsələ ilə bağlı mövqeyi aydındır və dəfələrlə müvafiq beynəlxalq təşkilatların, o cümlədən, Avropa Şurasının diqqətinə çatdırılıb: "Bu və ya digər şəxsi, o cümlədən, beynəlxalq təşkilatın nümayəndəsini və ya əcnəbi dövlətin vətəndaşını beynəlxalq tanınmış sərhədləri çərçivəsində və yerli qanunvericiliyə uyğun olaraq, öz ərazisinə buraxmaq hüququ suveren dövlətə aiddir".

Maraqlıdır, T.Yaqlandın belə bir qəribə təkliflə çıxış etməsində məqsəd nədən ibarətdir? Bunun kökündə nə dayanır? Tanınmamış bir separatçı ərazi ilə bağlı belə bir istəklə çıxış etmək hansı məntiqə uyğundur? Belə bir hüquq ancaq suveren dövlətə aiddir. O baxımdan, ekspertlər T.Yaqlandın məqsədini necə şərh edirlər?

**Məsələyə münasibət bildirən keçmiş diplomat, politoloq Fikrət Sadıqovun sözlərinə görə, Yaqlandın sözügedən təklifi tamamilə əsassız və məntiqsizdir:** "Eyni zamanda, beynəlxalq hüquq normalarına zidd bir yanaşmadır. Yaqland belə təkliflərlə kiminsə xoşuna gəlmək istəyirsə, bu onun öz şəxsi işidir. Ancaq nəzərə alsaq ki, Yaqland AŞ-nın baş katibidir, o zaman verdiyi açıqlamanın məsuliyyətini dərk edib həqiqətə uyğun bir bəyanat verməlidir. Bütün beynəlxalq qurumların Azərbaycanın ərazi bütövlüyünü tanıdığı halda, Yaqlandın belə bir təkliflə çıxış etməsi məntiqsizdir. Ona görə də bu cür yanaşma Azərbaycanın maraqlarına ziddir və bunu normal qəbul etmək olmaz. AŞ baş katibi o cür yanaşma sərgiləyirsə, belə çıxır bənzər münasibət Gürcüstan, Ukrayna, Moldovada olan separatçı bölgələrə də olmalıdır. Maraqlıdır, niyə adıçəkilən bölgələrlə bağlı Yaqland analoji fikir səsləndirmir? Dağlıq Qarabağ Azərbaycanın tərkib hissəsidir və uzun illərdir münaqişənin həlli ilə bağlı danışıqlar aparılır. Yaqland da bunu bilməmiş deyil. Görünən odur ki, Avropada bir sıra qurumlara rəhbərlik edən şəxslər insan haqlarının şişirdilməsi məsələsində çox əcaib bir rol oynayırlar. Onlar hesab edirlər ki, guya insan haqları uğrunda siyasi addımlar atılırsa, Azərbaycan digər ölkə vətəndaşlarının hüquqlarını pozmamalıdır. Ancaq, əslində, görürük ki, Azərbaycan vətəndaşlarının hüquqları pozulub. Etnik azərbaycanlılar Qarabağdan qovulub, onlara qarşı soyqırım aparılıb. Yaxşı olardı ki, Yaqland bunlarla maraqlansın. Yoxsa, insan hüquqları üzrə komissarın Dağlıq Qarabağa səfər hüququ barədə danışmaq yersizdir. Hesab edirəm ki, Yaqlandın açıqlaması erməni lobbisinə yaxşı görünmək məqsədi daşıyır. Ona görə də belə məntiqsiz təkliflə çıxış edir".

*Vidadi ORDAHALLI*

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Paşinyan İlham Əliyevlə Vyanada görüşünün hesabatını AŞPA-da verdi...

**Dağlıq Qarabağ münaqişəsi ilə bağlı son dövrlərdə proseslərin axarı yenidən maraqlı məcraya yönəlməkdədir. Bu xüsusda indi ən çox diqqət çəkən məqamlardan biri Ermənistanın baş naziri Nikol Paşinyanın Avropa Şurası Parlament Assambleyasında çıxışı və burada səsləndirdiyi müəyyən fikirlərdir. Düzdür, çıxışı zamanı Paşinyan yenə müəyyən sərsəmləmələr edib, lakin diqqət çəkən məqamlara da toxunub.**

Dağlıq Qarabağ konfliktinin region üçün ciddi çağırış olaraq qaldığını deyən Paşinyan Ermənistanda baş verən dəyişikliklərin Qarabağ konfliktinin həlli ilə bağlı İrəvanın təsəvvürlərinə yeni ton verdiyini bildirib: "Biz Azərbaycan Prezidenti ilə kifayət qədər konstruktiv və müsbət dialoq başlada bildik, amma əminəm ki, liderlər arasında dialoq konfliktin həlli üçün yetərli deyil. Cəmiyyətlər arasında dialoqun başlanması bizim ictimaiyyətləri sülhə hazırlamaq üçün vacibdir". Paşinyan, həmçinin, ATƏT-in Minsk Qrupu formatının Qarabağ münaqişəsinin həlli prosesində qəbul edilən yeganə format olduğunu bildirib. Erməni mediası isə əsas etibarı ilə sonuncu məqam üzərində dayanaraq yazır ki, Paşinyan Minsk Qrupu formatında məsələni heç də təsadüfən qabartmır. Özü də bu o fonda baş verir ki, Minsk Qrupunun münaqişə ilə bağlı son iki bəyanatı elə Paşinyanın özünün dediklərinə zidd olaraq sırf Azərbaycanın istəklərinə uyğun gəlir. Söhbət Minsk Qrupunun martın 9-da və bunun ardınca məlum Vyana görüşündən sonra yaydığı bəyanatlardan gedir. Xatırladaq ki, hər iki bəyanatda Qarabağ münaqişəsi ilə bağlı mövcud danışıqlar formatının saxlanmasının vacibliyi qeyd olunub. Paşinyanın son mövqeyi bu məsələnin artıq onun tərəfindən də qəbul olunduğunu göstərir.

Digər tərəfdən o da heç kimə sirr deyil ki, Minsk Qrupu münaqişənin mərhələli şəkildə, "Madrid prinsipləri"nə uyğun həllində maraqlıdır. Minsk Qrupu formatında da Qarabağ münaqişəsinin həllində maraqlı olduqlarını bəyan etməklə, ekspertlərin fikrincə, Paşinyan da konfliktin "Madrid prinsipləri" əsasında tənzimlənməsindən başqa çıxış yolu olmadığını artıq qəbul etmək məcburiyyətində qaldığını nümayiş etdirir. Erməni mediası isə yazır ki, bu məsələdə Paşinyana ağıl verən əsas şəxs Ermənistanın ilk prezidenti Levon Ter-Petrosyandır. "Joğovurd" qəzeti bu xüsusda yazır: "Ermənistanın baş naziri Nikol Paşinyan son vaxtlar Qarabağ münaqişəsinin nizamlanmasında məlum "Madrid prinsipləri"nə çox istinad edir və bunların aydınlaşdırılmasını vurğulayır. O belə bir bəyanatla ilk dəfə Qarabağda keçirilən təhlükəsizlik şurasının iclasında çıxış edib. Bu barədə aprelin 7-də "Yerkrapah" təşkilatının qurultayında da çıxış edərkən təkrarən qeyd edib. "Madrid prinsipləri"nin realda təyinatı, bu prinsiplər çərçivəsində aparılan danışıqlarda hansı mümkün, ilkin addımlar atıla bilər? Vyanada buna dəqiq cavab ala bilmədim və yalnız dəqiq cavab əldə etdikdən sonra "Madrid prinsipləri"nin nə dərəcədə qəbul oluna bilib-bilməyəcəyi, yaxud ümumiyyətlə qəbul olunması ehtimalına cavab verə bilərəm", - deyə Paşinyan ifadə edib. "Madrid prinsipləri" 2007-ci ilin noyabr ayında Madrid şəhərində Azərbaycan və Ermənistan tərəflərinə təklif edilib. Daha sonra 2009-cu il iyunun 10-da bu prinsiplərin yenilənmiş hissəsi təqdim edilib. Əsas prinsiplərə keçmiş DQMV-ni əhatə edən rayonların Azərbaycana qaytarılması, qaçqınların öz yaşayış yerlərinə qayıtması hüququ və sairə daxildir. Lakin "Madrid prinsipləri"nin açıqlanmasından öncə maraqlı proseslər baş verib. Söhbət bu prinsiplərlə bağlı Ermənistanın ilk prezidenti Levon Ter-Petrosyanın bəyanatlarından, onun tutduğu mövqeyindən və "Wikileaks"in məxfi sənədlərindən gedir. İlk növbədə, sirr deyil ki, Ermənistanın birinci prezidenti "Madrid prinsipləri" barədə daim mənfi rəy bildirib və bunu heç vaxt gizlətməyib. Maraqlıdır ki, birinci prezidentin çox hallarda dediyi başqa şeydir, lakin məxfiliyi açılmış sənədlərdə isə başqa şey əks olunur. Qeyd edək ki, 2017-ci il martın 22-də "Gündəmdən kənar" verilişinə müsahibə verərkən Levon Ter-Petrosyan Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə hər hansı layihə təqdim etmədiyini bəyan edib. "İndiyədək səsləndirilən bütün təkliflər nə Azərbaycan, nə də Ermənistan tərəfindən irəli sürülüb. Təkliflərin hamısı beynəlxalq təşkilatlar tərəfindən tərəflərə təqdim edilib. O məsələnin həll edilməsi istiqamətində ortaya qoyulan "Madrid prinsipləri" sənədləri 2007-ci ildən etibarən müzakirə olunmağa başlanıb", - deyə o bildirib.

2007-ci il oktyabrın 17-də yayılan "Wikileaks" sənədində isə birinci prezident Levon Ter-Petrosyan tərəfindən Minsk Qrupunun həmsədri Metyu Brayzaya məxfiliyi qorumaq şərtilə öz iradlarını bildirdiyi barədə məlumat ortaya qoyulur. Köçəryanın vəzifədən gedəcəyini nəzərə alaraq, Levon Ter-Petrosyan hesab edir ki, həmsədrlər danışıqlar prosesindəki vəziyyəti əks etdirən sənəd hazırlamalıdır. O bu sənədin tərtib edilməsinin ona aid olan ideya kimi dəyərləndirilməsini istəməsə də, ümid edirdi ki, Brayza digər həmsədrlərə bunu öz təşəbbüsü olaraq təqdim edəcək". Məqalədə qeyd edilir ki, birinci prezident Dağlıq Qarabağ münaqişəsinin həllində nəyə nail olunduğunu əks etdirən hər hansı formal sənəd olmadığını bildirib. O hesab edirdi ki, Minsk Qrupu həmsədrləri üçün bəlkə də bunu etməyin ən yaxşı yolu formal sənəd tərtib edərək, hər iki tərəfə artıq səmərəli şəkildə razılaşdırılmış, bütün elementləri əhatə edən həll layihəsi kimi təklif olunmasıdır. Bildirilir ki, Ter-Petrosyan indi eyni yanaşmanı Paşinyana da məsləhət görür və belə məlum olur ki, baş nazir keçmiş prezidentin yanaşmasını təqdir edir. Bunun əsas səbəblərindən biri də onunla bağlıdır ki, Paşinyan yaxın tezlikdə münaqişənin çözümü istiqamətində əməli addımlar atmayacağı təqdirdə savaşın qaçılmaz olduğunu, bu savaşda ölkəsinin hansı aqibətlə üzləşəcəyini yaxşı başa düşür.

Erməni politoloq Levon Şirinyan da vurğulayır ki, Dağlıq Qarabağ münaqişəsi müharibə ilə həll edildiyi halda ölkəsi böyük zərbə alacaq: "Ermənistan ordusu Azərbaycana qarşı əməliyyat aparmaq gücündə deyil. Bu yaxınlarda Mehridəki Aqarak batalyonunda nələrin yaşandığı hamınıza bəllidir. Bunlar sadəcə qığılcımdır. Orduda problemlər daha böyükdür və bu ordu ilə Azərbaycana qarşı duruş gətirmək asan deyil. Bunları baş nazir açıq etiraf etməsə də görür". Elə rusiyalı tanınmış hərbi ekspert Aleksey Xlopotov da Ermənistanı savaş məsələsində ehtiyatlı olmağa çağırıb. O, xüsusən də Ermənistanın müdafiə naziri David Tonoyanın daha realist mövqedən çıxış etməsinin zəruri olduğunu diqqətə çatdırıb: "Tonoyanın Azərbaycan ordusunun arxasında hücum diversiya qruplarının mümkün hərəkətləri barədə sözləri məqsədyönlü təxribatdır. Həm Paşinyan, həm də Tonoyan Azərbaycan Silahlı Qüvvələrinin müasir qüvvəsini nəzərə almaqla, yaxşı başa düşürlər ki, Azərbaycanla hərbi əməliyyatların bərpası onlar üçün çox dağıdıcı məşğələ olacaq. Bundan başqa, münaqişənin eskalasiyası şəraitində Ermənistanı birmənalı olaraq dəstəkləyən heç bir müttəfiqi yoxdur. Buna görə İrəvan Moskva və Vaşinqton arasında qaçaqaçda qalıb, nəyin bahasına olursa olsun, KTMT rəhbərliyində qalmağa da cəhd edir. Təbii ki, Amerika Birləşmiş Ştatlarındakı erməni diasporunun diqqətini, əslində isə maliyyə və siyasi resurslarını cəlb etmək məqsədilə Tonoyan Paşinyan və onun komandasından ibarət rejimin qətiyyətini və canlılığını sübut etmək üçün "şahin mahnıları" oxumağa vadar edilir". Amma o da maraqlıdır ki, bütün bunlara rəğmən, erməni diasporunun Paşinyandan tədricən imtina etməsi də aydın müşahidə olunur. "Jamanak" qəzeti hətta bu xüsusda yazır ki, yaranmış vəziyyətdə Hayastan Ümumerməni Fondunun builki telemarafonu baş tutmaya bilər: "Fondun Los-Ancelesdəki ən böyük ofisinin işi iflic olub. Belə ki, fondun bir sıra əsas şəxsləri ofisi tərk etmək istədiklərini və Ermənistanın yeni hökumətilə işləmək istəmədiklərini bildiriblər. Hazırda buna görə telemarafonun keçirilməsinə hazırlıq aparılmır.

Belə görüntü yaranır ki, Ermənistanın yeni hökuməti də Hayastan Fondundan imtina edib və onu "Mənim Addımım", eləcə də "Təbəssümlər Şəhəri" fondları ilə əvəz etməyə çalışır. Paşinyanın arvadı Anna Akopyanın Amerika səfəri göstərdi ki, bu fondlara inam elə də yüksək deyil. Bu fondlara vəd edilən məbləğ 1 milyon dollardır, əslində isə toplanacaq məbləğ daha az olacaq". Qeyd edək ki, Hayastan Fondu 1992-ci ildə Levon Ter-Petrosyanın əmrilə yaradılıb. Bu təşkilat hər il keçirdiyi telemarafonlarla Ermənistan və işğal altındakı Qarabağ üçün vəsait toplamaqla məşğul olur. Amma indi fond Paşinyan iqidarı ilə işləmək istəmir. "Jamanak" qəzeti qeyd edir ki, belə vəziyyətdə Rusiya, ABŞ-la münasibətləri elə də yaxşı olmayan Paşinyanın diasporun da dəstəyindən məhrum olması onun üçün çox ciddi problemlərin yaranması deməkdir. Qeyd olunur ki, məhz belə şəraitdə Qarabağ savaşı yenilənəcəyi təqdirdə Ermənistan hakimiyyəti daha böyük problemlərlə üzləşməli olacaq. Bu səbəbdən də Paşinyan, səsləndirdiyi fikirlərə rəğmən, Qarabağ məsələsində Azərbaycanla razılığa gəlməyə məcburdur.

Digər tərəfdən, Paşinyanı narahat edən məqamlardan biri Türkiyə faktorudur. Elə Avropa Şurası Parlament Assambleyasında da Paşinyan bildirib ki, Ermənistanla münasibətlərin bərpasını Türkiyə Azərbaycanla əlaqələndirir: "Təəssüf ki, bizim Azərbaycan və Türkiyə ilə diplomatik münasibətlərimiz yoxdur. Azərbaycanla münasibətlərdə hər şey aydındırsa, Türkiyə ilə bağlı məsələdə başqa görüntü var. Ermənistanla münasibətlərin bərpasını Türkiyə birbaşa Azərbaycanla əlaqələndirir. Ermənistan bu məsələdə mövqeyini dəyişməyib. Biz deyirik ki, heç bir ilkin şərt irəli sürmədən Türkiyə ilə münasibətlərin bərpasına hazırıq". Erməni mediası isə yazır ki, əslində, Paşinyanın Türkiyə amilini xatırlatması başqa məqamla bağlıdır. Belə ki, Türkiyə-Rusiya münasibətləri son illər strateji xarakter alır. İrəvan qorxur ki, Ankara Moskva ilə işbirliyi əsasında Qarabağ münaqişəsinin həlli prosesində rol almaq istəyəcək. Məhz bu vəziyyətdə Paşinyan daha çıxılmaz duruma düşəcək. O səbəbdən onun yeganə çıxış yolu azərbaycanla mümkün qədər tez razılığa gəlməkdir.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

**Məlum olduğu kimi, Maliyyə Bazarlarına Nəzarət Palatası Azərbaycanda kreditlər üzrə orta faiz dərəcəsini azaltmağı təklif edir. Bundan başqa, Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi tərəfindən "Banklar haqqında" qanuna təklif edilən dəyişiklik də bu prosesdə mühüm rol oynamaq iqtidarındadır.**

# Bank faizlərinin sahibkarlığın inkişafına ağır təsirinə yeni sübutlar...

*Yüksək bank faizlərinin sahibkarlığın inkişafına iflicedici təsiri davam edir...*



Qeyd edək ki, "Banklar haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi müştərilərin maraqlarının qorunması məqsədilə kredit müqavilələri üzrə faiz dərəcələrinin, komissiya haqlarının və bank xidmətləri üçün digər ödənişlərin optimallaşdırılmasına görə onların yuxarı həddinin tənzimlənməsini nəzərdə tutur. Yəni artıq bankların verdikləri kreditlər üçün müəyyən yuxarı hədd müəyyən olunması gündəmdədir və belə vəziyyətdə banklar daha yüksək kredit faizlərindən istifadə edə bilməyəcək. Gözlənir ki, faizlərə Maliyyə Bazarlarına Nəzarət Palatası tərəfindən nəzarət olunsun. Qanun yaxın tezlikə parlamentin plenar iclasına çıxarılacaq. Ekspertlər isə ölkədə həyata keçirilən yeni islahatlar fonunda bütün bunların mühüm əhəmiyyət kəsb etdiyini vurğulayır. Ən azı o baxımdan ki, kredit faizləri aşağı olduğu halda bundan faydalanan sahibkarların sayının daha da artması mümkün hala gələcək. Məhz bu vəziyyətdə ölkə iqtisadiyyatında özəl sektorun xüsusi çəkisinin daha da artması gözlənir.

Düzdür, indilikdə banklar özləri könüllü şəkildə faiz endirimlərinə getməyə tələsmirlər. Belə görünür ki, məsələnin qanunvericlik formasında əksini tapması olduqca vacibdir. Eyni zamanda, faizlərin aşağı salınması üçün digər iqtisadi addımların atılması da önəmli sayılır. Məsələn, ekspertlər bildirir ki, bu gün kommersiya banklarının kredit faizləri ilə depozit faizləri arasında kəskin fərq var. Belə ki, kommersiya bankları orta hesabla depozitləri manatla 7 faizlə, xarici valyuta ilə 1 və daha aşağı faizlə cəlb edir, ancaq manatla kreditləri 30 faizlə, xarici valyuta ilə kreditləri isə 12-16 faizlə təklif edirlər. Bu da kreditlərlə bank faizləri arasında kəskin fərqdən xəbər verir. Məhz bu fərqin aradan qaldırılması olduqca önəmli sayılır. Çünki belə olan halda bank faizlərinin aşağı düşməsi qaçılmaz sayılır.

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Tahir Mirkişili isə bununla yanaşı digər iqtisadi addımların da işə salınmasını zəruri sayır: "Bu gün Azərbaycanda kredit faizlərinin, xüsusən sahibkarlıq üçün kredit faizlərinin yuxarı olması sahibkarlığın inkişafı üçün müəyyən qədər maneələr yaradır. Kredit faizləri nə qədər aşağı olarsa, sahibkarlıq daha çox investisiya cəlb edə bilər və yaxud daha çox iş görə bilər. Bu gün bütövlükdə kredit portfelinin ümumi daxili məhsulda həcmi, təxminən 12 faizə yaxındır. İqtisadiyyatın sürətli inkişaf etməsi üçün kredit portfelinin ümumi daxili məhsulda payı 60 faizdən yuxarı olmalıdır. Bu o deməkdir ki, Azərbaycanda kredit portfelinin həcmi xeyli aşağıdır. İqtisadiyyatın sürətli inkişafı üçün kreditlərə ehtiyac var, bu kreditlərin həcmi artmalıdır. Amma istənilən halda kredit faizləri də sahibkarlara daha çox iş görməyə imkan verməlidir". Onun sözlərinə görə, bu gün Avropa ölkələrində kredit faizləri aşağı olduğu halda, bizdə bir çox hallarda 15 faizin üzərindədir: "Böyük həcmdə fərqin olması bizim sahibkarların rəqabət qabiliyyətini aşağı salır. Azərbaycan sahibkarları ixrac zamanı bazarlarda Avropa şirkətləri ilə üzləşir. Sahibkarlarımızın ucuz pul kütləsinə asan çıxışının olmaması rəqabətdə ciddi problemlər yarada bilir.

Amma məsələnin ikinci tərəfi var ki, kredit faizlərini hansı formada aşağı salmaq mümkündür. Çünki banklar özəldir və onlar da sahibkarlığın bir formasıdır. Bu gün bankların hər hansı bir formada kredit faizlərini aşağı salması iki istiqamətdə mümkündür. Bir istiqamət ondan ibarətdir ki, istənilən halda bankların daha çox ucuz pul kütləsinə çıxışı olmalıdır. Bir çox ölkələrdə müəyyən dərəcədə məhdudiyyətlər tətbiq edirlər ki, banklara yuxarı faizli kredit verilməsi iqtisadi cəhətdən sərf etməsin. Məsələn, banklara yuxarı faizlə kredit verilirsə, bu kreditlərin qaytarılması üçün banklar daha çox özlərində ehtiyat yaratmalıdır. Bankın daha çox ehtiyat yaratması bir çox hallarda ona sərf etmir. Ona görə də bank daha az ehtiyat yaratmaq üçün aşağı faizlə kredit verməkdə maraqlı olur. Bu, məsələnin mühüm bir hissəsidir.

Biz də düşünürük ki, bu gün ölkəmizdə iqtisadi alətlərlə banklara kredit faizlərinin aşağı salınması ilə bağlı iqtisadi təsir mexanizmləri yaratmaq mümkündür. Amma eyni zamanda, daha ucuz kreditə və yaxud da pul kütləsinə çıxışı təmin etmək üçün banklara köməklik göstərmək lazımdır. Son nəticədə kredit faizlərinin aşağı düşməsində hamımız maraqlıyıq. Çünki kredit faizlərinin yuxarı həddə olması sahibkarlıq fəaliyyətinin inkişafı üçün maneədir". Bununla yanaşı, digər iqtisadçılar hesab edir ki, faizlərin bank sektorunda rəqabətin gücləndirilərək tənzimlənməsi də məqsədəuyğun olardı. Hesab edilir ki, bank sektorunda rəqabətin gücləndirilməsi, bankların likvidliyinin artırılması və sağlamlaşdırılması istiqamətində fəaliyyətlər güclənərsə, bu, kredit faizlərinin tənzimlənməsinə imkan verəcək. Məhz belə vəziyyət bankların sahibkarlığın inkişafına daha böyük töhfə verməsinə gətirib çıxara bilər.

***Nahid SALAYEV***

---

**Məlum olduğu kimi, Azərbaycanın ərsəyə gətirdiyi meqalayihələrə başqa region ölkələri də böyük maraq göstərirlər. Belə ölkələrdən biri də Türkmənistandır. Həmin Orta Asiya ölkəsi hesab edir ki, zəngin enerji resurslarını Azərbaycan vasitəsilə dünya bazarına çıxarmaq daha optimaldır.**

# Türkmənistan qazı Azərbaycana nə ilə mane olur?...

***Rəşad Həsənov:** "Transxəzər Azərbaycan üçün çox əhəmiyyətli layihədir"*




*"Azərbaycan və Türkmənistandan ixrac edilən qazın həcmi orada qiyməti aşağı salmaq üçün yetərli olmayacaq"*

Son aylarda Türkmənistan hökumətində Transxəzər qaz kəməri layihəsinin dirçəldilməsi ilə bağlı hərəkətlilik hiss olunmaqdadır. 2018-ci ilin avqustunda Xəzərətrafı 5 ölkənin dənizin hüquqi statusu ilə bağlı razılaşmanı imzalamasından dərhal sonra bu layihə ilə bağlı müzakirələr də başlandı. Düzdür, müzakirələrin lap başlanğıcında Rusiya onun iradəsindən kənar Xəzər dənizinin dibi ilə hər hansı kəmərin çəkilməsinin qeyri-mümkün olduğunu bildirsə də, Türkmənistan bu niyyətindən əl çəkməyib. Bəzi ekspertlər hesab edirlər ki, Türkmənistanın ərsəyə gətirmək istədiyi layihədən Azərbaycana da maksimum fayda olacaq və biz bundan tranzit haqqımızı götürəcəyik. Ancaq fərqli düşünən ekspertlər da var. Azərbaycanda olan bəzi ekspertlər isə iddia edirlər ki, Transxəzərdən Azərbaycanın böyük həcmdə gəlirlər əldə edəcəyinə dair deyilənlər reallığı əks etdirmir. Bu fikirdə olanların qənaətincə, türkmən qazının "Cənub Qaz Dəhlizi" ilə Avropa bazarına nəql olunması Azərbaycan qazının qiymətinin ucuzlaşmasına səbəb ola bilər: "Biri var bu bazara 10 milyard kubmetr Azərbaycan qazı çıxsın, biri də var onunla bərabər daha 10 milyard kubmetr türkmən qazı çıxsın. Türkmən qazının bizim məhsulla eyni vaxtda bazara çıxması bizim məhsulun qiymətində azı 15 faiz ucuzlaşmaya səbəb olacaq. Fərq etmir, Avropada qaza tələbat yüksəkdir, yaxud azdır. Bir bazara eyni vaxtda iki satıcının məhsulu çıxırsa, bu, mütləq qiymətə azaldıcı təsir göstərir. Tranzit haqqına gəlincə, Rusiya ildə Ukrayna üzərindən 90 milyard kubmetr qaz nəql edir. Tranzit haqqı olaraq Ukrayna bundan 2,5 milyard dollar qazanır. Biz də ildə 10 milyard kubmetr türkmən qazından uzağı 250 milyon dollar tranzit haqqı ala bilərik. Bunun da mühüm bir hissəsi gedəcək boru kəmərlərinin səhmdarlarına çatacaq".

Transxəzər boru kəmərinin tam ərsəyə gəlməsinin Azərbaycana faydasının olmayacağı ilə bağlı səslənən fikirləri nə dərəcədə əsaslı saymaq olar?

**İqtisadçı-ekspert Rəşad Həsənov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Transxəzər Azərbaycan üçün çox əhəmiyyətli layihədir:** "Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindən biri də enerji siyasətidir. Eyni zamanda, burada ölkənin tranzit imkanlarından istifadə edərək, mövcud potensialın dəyərləndirilməsi ortaya çıxır. Bu baxımdan Transxəzər Azərbaycanın tranzit əhəmiyyətini artıra biləcək bir layihədir. Eyni zamanda, regiona investisiya qoyuluşlarını artıra biləcək bir projedir. Transxəzər həm də regionda Rusiyanın mövqelərinin bir qədər zəifləməsinə gətirib çıxarmaq gücünə sahibdir. Düzdür, bunun reallaşması hələ tam dəqiq deyil. Ancaq Qərb bunda çox maraqlıdır və mərhələli siyasət həyata keçirir. Mən düşünürəm ki, gələcək üçün Transxəzərin reallaşma imkanları mövcuddur. Layihə reallaşarsa, bu, əlavə zərurətlər ortaya çıxaracaq. Azərbaycan qaz ixracı baxımından Avropanı tam təmin edə biləcək potensiala malik deyil. TAP və TANAP-ın işə düşməsi ciddi ixrac imkanları yaradır. Sözügedən layihə Azərbaycana həm siyasi, həm də iqtisadi dividendlər gətirmək gücündədir. Bunu da nəzərə almaq lazımdır ki, Avropanın qaz istehlakı günü-gündən artır. Növbəti 15 ildə proqnozlaşdırılır ki, Avropanın qaza olan tələbi 650 milyard tona qədər yüksələcək. Bu isə, öz növbəsində, onu deməyə əsas verir ki, Transxəzər layihəsi daxil olmaqla, Azərbaycan və Türkmənistandan ixrac edilən qazın həcmi orada qiyməti aşağı salmaq üçün yetərli olmayacaq. Bir daha qeyd edim ki, layihə ərsəyə gələnə kimi Avropanın tələbatı da artır".

***Məhəmmədəli QƏRİBLİ***

# Azərbaycan maliyyə sistemində inqilab - manat istiqrazlarının buraxılışına başlanır...

## *Beynəlxalq miqyasda da manata inam artır*

**Maliyyə bazarlarında son vəziyyətin təhlili manatın sabit mövqedə qaldığını, hətta bir sıra xarici valyutalara nisbətdə məzənnəsinin müəyyən qədər artdığını göstərir. Belə görünür ki, Mərkəzi Bankın müdaxiləsi olmayacağı təqdirdə manat xarici valyutalar, o cümlədən avro və dollar qarşısında xeyli dərəcədə bahalaşa bilər. Sadəcə, qeyri-neft sektoru üzrə ixracı qorumaq məqsədilə Mərkəzi Bank manatın çox da bahalaşmasını istəmir.**

Hesab edilir ki, ölkədə həyata keçirilən iqtisadi siyasət, xüsusən də ixracın əhəmiyyətli dərəcədə stimullaşdırılması fonunda manat sabit mövqeyini bundan sonra da qorumaqda davam edəcək. Belə vəziyyət öz növbəsində cəmiyyətdə milli valyutaya etimadı daha da gücləndirməklə yanaşı, manata artıq beynəlxalq miqyasda da diqqətin artmasına səbəb olmaqdadır. Elə manat istiqrazlarının buraxılışı və yerləşdirilməsi ilə bağlı atılan addımlar da bunun təsdiqi sayıla bilər.

Qeyd edək ki, aprelin 14-də Asiya İnkişaf Bankı xəzinədarlığının nümayəndə heyəti manat istiqrazlarının buraxılışı və yerləşdirilməsi mexanizmini müzakirə etmək üçün Azərbaycana səfər edəcək. Adının açıqlanmasını istəməyən Asiya İnkişaf Bankının təmsilçisi bu xüsusda bildirib: "Azərbaycanın hökümət dairələrində manat istiqrazlarının buraxılışı ilə bağlı razılıq var". Sözügedən istiqrazlar özəl sektor üçün sərmayə qoyuluşunu dəstəkləyəcək alternativ maliyyə mənbəyi kimi çıxış edəcək. Belə ki, İqtisadiyyat Nazirliyi yanında Kiçik və Orta Biznesin İnkişafı Agentliyi ilə Asiya İnkişaf Bankı nümayəndələri arasında keçirilən bir sıra görüşlərdə kiçik və orta biznesin inkişaf fondlarının və biznes klasterlərinin əməkdaşlıq imkanları müzakirə olunaraq özəl sektorun inkişafı sahəsində bu bankla əməkdaşlığın zərurəti vurğulanıb, əlaqələrin daha da genişləndirilməsi məsələləri müzakirə olunub. Yayılan məlumata görə, biznes üçün maliyyə əldə etmək imkanlarını asanlaşdırmaq məqsədilə Asiya İnkişaf Bankının Bakı ofisinə özəl sektorla əməliyyatların inkişafı sahəsində təcrübəli mütəxəssis göndəriləcək. İndiyədək bu məsələnin müzakirəsi üçün Azərbaycana Asiya İnkişaf Bankının qərargahından, yaxud Gürcüstan ofisindən missiyalar səfər edirdi. Lakin artıq vəziyyət dəyişir və atılan addımlar manata beynəlxalq miqyasda yüksək etimadın növbəti təzahürü sayılır.

Asiya İnkişaf Bankının manatla istiqrazlarının buraxılması qərarını şərh edən iqtisadçı Vüqar Bayramov isə bildirir ki, sözügedən bankın manatla istiqrazların buraxılması qərarına təsir göstərən əsas faktorlardan biri 2017-ci ilin fevralından sonra manatın məzənnəsinin stabil qalmasıdır. Ekspert qeyd edib ki, artıq iki ildən artıqdır manat mövcud məzənnəsini qoruyub saxlayır: "Təbii ki, burada Mərkəzi Bankın mövqeyi və proseslərə təsiri həlledicidir. Ancaq beynəlxalq maliyyə qurumları, xüsusən də əvvəlki dövrlərdə milli valyutanın məzənnəsinin stabilliyini nəzərə alaraq, istiqrazların buraxılmasına dair qərar qəbul edib. Təbii ki, hələlik istiqrazlar bir növ pilot olaraq buraxılacaq. Daha sonra isə bu istiqrazlara marağın artması fonunda yeni



emissiyaların buraxılması mümkündür. Bütün hallarda aparıcı maliyyə qurumlarından biri olan Asiya İnkişaf Bankı tərəfindən manatla istiqrazlarının buraxılması ölkədaxili qiymətli kağızlar bazarı üçün vacib şərtlərdən biridir".

İqtisadçı bu fonda, xüsusən də investorlarda manat istiqrazlarına marağın formalaşacağını deyib: "Manatın məzənnəsinin stabilliyi davam edəcəyi halda digər ölkədaxili qurumlar tərəfindən də buraxılan istiqrazlara marağın artması mümkündür. Hələlik qiymətləndirmələr göstərir ki, vətəndaşların dollarla istiqrazlara marağı yüksəkdir. SOCAR-ın dollar istiqrazlarının alınması da bundan xəbər verir. Bu mənada, ölkə daxilində manat istiqrazlarına marağın artırılması üçün Mərkəzi Bank tərəfindən mövcud məzənnənin uzunmüddətli dövrdə qorunub saxlanması vacibdir".

Manata beynəlxalq miqyasda marağın artması fonunda isə Asiya İnkişaf Bankı həm də ilin sonuna qədər Azərbaycanın bank bazarında iştirakını genişləndirməyi planlaşdırır. Bankın Azərbaycandakı nümayəndəliyinin rəhbəri Nariman Mannapbekov bildirib ki, təmsil etdiyi bank Ticarət Maliyyələşdirmə Proqramı (TFFP) çərçivəsində müvafiq bankları müəyyənləşdirməyi planlaşdırır: "Azərbaycan bankları vasitəsilə ixrac-idxal əməliyyatlarını dəstəkləməyə hazırıq. İlin sonuna qədər, çox güman, müştərisinə dəstək verməli olan bir bankı müəyyənləşdirəcəyik" . O qeyd edib ki, bu proqram çərçivəsində bankların siyahısının genişləndirilməsi də istisna deyil. Onun fikrincə, bu, Asiya İnkişaf Bankının ticarətin maliyyələşdirilməsinə dair proqramında iştirak etmək üçün yerli bankların uyğun gəlməli olduğu kriteriyalardan asılıdır. Xatırladaq ki, Asiya İnkişaf Bankı TFFP-nin icrasına 2004-cü ildə başlayıb. Bankın ticarətin maliyyələşdirilməsi proqramı ticarətin təşviqi üçün zəmanətlər və kreditlər verir, bu da bütün Asiya regionunda çox sayda şirkət və müəssisənin ixrac-idxal əməliyyatlarını aparmasına imkan verir.

Xatırladaq ki, Asiya İnkişaf Bankı 1966-cı ildə yaradılıb və onun 67 üzvü var. Bankın qərargahı Filippinin paytaxtı Manila şəhərində yerləşir. Azərbaycan 1999-cu il dekabrın 22-də bankın üzvlüyünə qəbul edilib, ölkənin bankın kapitalındakı payı 0,5 faiz təşkil edir. Lakin qarşılıqlı əməkdaşlığın dərinləşməsi fonunda bu payın da artması istisna deyil.

***Tahir TAĞIYEV***

# Gömrük Komitəsində gömrük təmsilçiləri ilə görüş keçirildi



**Aprelin 12-də Dövlət Gömrük Komitəsində gömrük təmsilçiləri ilə görüş keçirilib. Görüşdə Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini, gömrük xidməti general-mayoru İsmayıl Hüseynov, Komitə sədrinin müavini, gömrük xidməti general-mayoru Cavad Qasımov, Baş İdarə rəisləri, aidiyyəti qurumların rəhbərləri, gömrük təmsilçiləri iştirak edib.**

DGK Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsindən "Bakı-Xəbər"ə bildirildiyinə görə, görüşdə çıxış edən DGK sədrinin birinci müavini İsmayıl Hüseynov bildirib ki, ticarətin asanlaşdırılması, vətəndaş məmnuniyyətinin təmin olunması istiqamətində Prezident İlham Əliyev tərəfindən ciddi islahatlar həyata keçirilir və bu islahatların əsas istiqamətlərindən biri də münbit və şəffaf biznes mühitinin yaradılmasıdır. Ölkəmizin gömrük orqanları bu sahədə qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi məqsədilə ciddi addımlar atır və artıq gömrük-biznes münasibətlərində məmur-vətəndaş təması minimuma endirilərək şəffaflıq təmin edilib.

Gömrük işinin səmərəli və şəffaf şəkildə həyata keçirilməsində gömrük təmsilçilərinin mühüm rol oynadığını deyən Komitə sədrinin birinci müavini, uzun illərdir təşkil edilməsinə baxmayaraq, gömrük təmsilçiliyi institutlarının peşəkarlığının, bilik və bacarıqlarının artırılmasına ciddi ehtiyac olduğunu vurğulayıb və qarşılıqlı işgüzar əməkdaşlıq müstəvisində bu məsələlərin həllini tapacağına ümidvar olduğunu bildirib.

Dövlət Gömrük Komitəsi sədrinin müavini Cavad Qasımov son illərdə gömrük orqanlarında aparılan islahatlar nəticəsində biznes nümayəndələri üçün əlverişli şəraitin yaradıldığını diqqətə çatdırıb. Həyata keçirilən islahatlardan gömrük təmsilçilərinin də faydalanmasının vacibliyinə toxunan Komitə sədrinin müavini bu sahədə fəaliyyət göstərən qurumların və şəxslərin gömrük qanunvericiliyini mükəmməl şəkildə mənimsəməsinin biznes mühitinin yaxşılaşdırılmasına, şəffaflığın təmin olunmasına, gömrük əməliyyatlarının sürətli və asan şəkildə həyata keçirilməsinə münbit şərait yaradacağını bildirib.

Dövlət Gömrük Komitəsinin gömrük təmsilçilərinə daim dəstək göstərdiyini qeyd edən Cavad Qasımov gömrük orqanları tərəfindən təmsilçilər üçün xüsusi kursların, seminar və təlimlərin təşkil ediləcəyini vurğulayıb. Diqqətə çatdırılıb ki, məqsəd gömrüklə biznes arasında körpü rolu oynayan təmsilçilik institutlarının peşəkarlığının və xidmət səviyyəsinin artırılmasıdır.

Sonda mövzu ilə bağlı fikir mübadiləsi aparılıb, rəy və təkliflər dinlənib, gömrük təmsilçilərinin sualları cavablandırılıb.

***Baki-xeber.com***

# Rektor Nurlana Əliyeva Slavyan Universitetində təhsil haqqı üzrə ciddi maliyyə pozuntularına aydınlıq gətirdi

*"Bu məsələ köhnə illərə, mənim rektor olmadığım dövrlərə aiddir"*

**Bir sıra elektron KİV-də Bakı Slavyan Universitetində (BSU) tələbələrə əsassız təhsil haqqı hesablanması, rektorun imzaladığı aktda 60 min manat kənarlaşma olduğu yazılır. Qeyd edilənə görə, bu faktlar Hesablama Palatasının Bakı Slavyan Universitetində apardığı audit yoxlamasının nəticəsində aşkarlanıb.**

*"... bədxahlar götürüb burada mənim adımı hallandırıblar"*

Hesablama Palatasının yaydığı məlumata görə, Bakı Slavyan Universiteti üzrə daxilolmaların və xərclərin proqnozlaşdırılması və icrasının qanunvericiliyə uyğunluğunun auditi 1 yanvar 2016-cı il tarixindən 1 iyul 2018-ci il tarixinədək olan dövrü əhatə etməklə, 2018-ci ilin 19 sentyabr tarixindən 19 oktyabr tarixinədək aparılıb.

Audit zamanı məlum olub ki, universitetdə ödənişli əsaslarla təhsil almış, müxtəlif səbəblərdən xaric edilmiş, 1 iyul 2018 tarixinədək bərpa edilməmiş yerli və əcnəbi tələbələrdən, doktorantlardan və yenidən hazırlanma kurs dinləyicilərindən cəmi 126 150 manat təhsil haqqının vaxtında alınmasının təmin edilməməsi səbəbindən təhsil haqqı borcu qalıb. "Göstərilən təhsil haqqı borcunun 49 500 manatını 2016/2017-ci tədris ilinin əvvəlinədək yaranmış borclar təşkil edib. Xarici ölkələrin vətəndaşları olan tələbələrin universitetə qəbul edilməsinə dair əmr verilərkən müəyyən olunmuş təhsil haqqı məbləğinin minimum 50%-nin alınması tələbinin gözlənilməməsi nəticəsində 2016/2017-ci tədris ilində bakalavrlar və hazırlıq kursları üzrə ümumilikdə 2 halda olmaqla, 900 manat məbləğində təhsil haqqının alınması təmin edilməyib. 2017/2018-ci tədris ilində akademik məzuniyyət götürən tələbələr üzrə də düzgün olmayaraq hesablama verilib, nəticədə 14 halda olmaqla 18 150 manat borc yaranıb. Yaz semestrinin əvvəlində başqa ali təhsil müəssisələrinə köçürülən tələbələrə təhsil almadığı dövrdə düzgün olmayaraq, 2015/2016 və 2017/2018-ci tədris illərində 3 halda olmaqla, 3 min 400 manat təhsil haqqı hesablanıb. Ödənişli əsaslarla təhsil alan, lakin müvafiq tədris illərində universitetlə əlaqə saxlamadığı, həmçinin, fərdi tədris planı imzalamadığı üçün növbəti semestrdə xaric edilmiş tələbələrə düzgün olmayaraq, 2015/2016 və 2017/2018-ci tədris illərində 14 halda olmaqla, təhsil haqqı üzrə, ümumilikdə, 13 150 manat hesablama verilib. Nəticədə əsassız təhsil haqqı borcu yaranıb. Bakı Slavyan Universitetində ödənişli əsaslarla təhsil alanlardan təhsil haqqının müəyyən edilmiş təhsil müddətində alınması təmin edilmədiyindən, (39 halda 2016-cı il tarixinədək, 15 halda 2016-cı və 4 halda 2017-ci ildə) 01.07.2018-ci il tarixə universiteti bitirmiş tələbələrin təhsil haqqı üzrə 70 450 manat borcu qalıb. Həmçinin, qeyd olunan təhsil haqları tərtib edilmiş maliyyə hesabatlarında öz əksini tapmayıb. Tələbələrin universiteti bitirməsinə dair təhsil sənədi diplom şöbəsində saxlanır" - məlumatda qeyd edilir.




Hesablama Palatasının yaydığı məlumatda əks olunan məsələlərə BSU rəhbərliyinin münasibətini öyrəndik.

Bakı Slavyan Universitetinin rektoru, professor Nurlana Əliyeva "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Hesablama Palatasının üzə çıxardığı faktlar onun rektorluğundan əvvəlki dövrlərə aiddir: "Bu məsələ köhnə illərə, mənim rektor olmadığım dövrlərə aiddir. Bu məlumat Hesablama Palatasının rəsmi saytında da var. Bu məndən əvvələ aid olduğu halda, bədxahlar götürüb burada mənim adımı hallandırıblar. Bunu kimin yazdığını bilmirəm, heç maraqlanmamışam, hansısa saytlar yazıb. Mən bu məsələyə münasibət bildirmək istəmirəm. Hesablama Palatasının saytında hər şey öz qaydasında yazılıb, maraqlanırsınızsa, baxıb tanış olun".

Qeyd edək ki, Nurlana Əliyeva 23 iyun 2016-cı il tarixində Prezident İlham Əliyevin sərəncamı ilə Bakı Slavyan Universitetinin rektoru təyin edilib.

***İradə SARIYEVA***

# Məktəblərdə fizika fənni üzrə dərs saatları yetərlidirmi?

**Orta təhsil sistemində tədris edilən bütün fənlər şagirdlərin bilik və bacarıqlarının artmasında, formalaşmasında müstəsna rol oynayır. Elə fənlər də var ki, onlara xüsusi münasibət olmalı və tədrisinə xüsusi əhəmiyyət verilməlidir. Elə orta məktəblər var ki, orada sosial-humanitar yönümlü dərslərin saatı daha çox olur, nəinki texniki fənlərin.**

***Məlahət Mürşüdlü:*** *"Təkcə fizika deyil, coğrafiya, kimya, biologiya kimi fənlərin də tədrisinə ayrılan dərs saatı əvvəlki illərlə müqayisədə çox azdır"*

***İlqar Orucov:*** *"Fizika, kimya, biologiya fənlərinə ayrılan dərs saatı az olduğu üçün, şagirdlər proqramı tam mənimsəyə bilmirlər"*

Son zamanlar müəllimlərlə söhbətlərimiz zamanı onlar bildirirlər ki, məktəblərdə fizika, kimya, biologiya, coğrafiya kimi fənlərin tədris saatı qənaətbəxş deyil. Yəni həmin fənlərin tədrisinə az saat ayrılır. Bu da, sözsüz ki, həmin fənlərdən dərs deyən müəllimlərin dərs yükünün az olması ilə nəticələnir, həm də onların əməkhaqqına təsir göstərir.

Orta ümumtəhsil məktəblərində texniki fənlərə, xüsusən də fizika fənninə az tədris saatı ayrılması nə ilə bağlı ola bilər?

**Tanınmış təhsil eksperti Məlahət Mürşüdlü mövzunu "Bakı-Xəbər"ə şərh edərkən bildirdi ki, həqiqətən də bu gün sözügedən fənnə və digər texniki fənlərə ayrılan dərs saatı çox azdır.** "Həqiqətən də orta məktəblərdə bu proses gedir. Təkcə fizika deyil, coğrafiya, kimya, biologiya kimi fənlərin də tədrisinə ayrılan dərs saatı əvvəlki illərlə müqayisədə çox azdır. Bu həm də müəllimlərin fəaliyyətinin tam təmin olunmamasına, eləcə də o fənlərin orta məktəblərdə tam mənimsənilməməsinə səbəb olur. Bu fənlərə tədris saatının az ayrılması düşünürəm ki, həftəlik dərs yükünün azaldılması ilə bağlıdır. Digər tərəfdən də artıq orta məktəblərdə təmayülləşmə gedir. Hansı siniflər ki, texniki fənlər üzrə təmayülləşib, orada həmin fənlərin dərs saatı yüksəkdir, nəinki humanitar siniflərdə. Ancaq fizika, kimya, biologiya və coğrafiya fənlərinin tədris saatının azaldılması prosesi təmayülləşmədən əvvəl başlanıb. Düşünürəm ki, araşdırma aparılmadan belə bir addımın atılması düzgün deyildi".



M.Mürşüdlü qeyd etdi ki, artıq 3 ildir siniflərin marağına uyğun olaraq təmayülləşmə gedir və bu proses nəticəsində həmin fənlərlə bağlı problemlər aradan qaldırılır. O, həmçinin, vurğuladı ki, bütün məktəblər hələ təmayülləşməyib. Ekspert ümid edir ki, təmayülləşmə prosesi başa çatdıqdan sonra sözügedən fənlərin də tədris saatı normallaşacaq.

**Fizika-riyaziyyat üzrə fəlsəfə doktoru İlqar Orucov bildirdi ki, orta məktəblərdə dərs proqramlarının ağır olması gizlin deyil.** O qeyd etdi ki, Azərbaycanda riyaziyyat, kimya, fizika kimi fənlər üzrə yazılan dərsliklər kifayət qədər yüklənib. "Dərsliklərdə yer alan mövzular xeyli çətin mövzulardır. Müqayisə üçün deyim ki, Almaniyada olarkən fizika, riyaziyyat, kimya dərslikləri ilə tanış oldum. Gördüm ki, o dərsliklər bizdəki qədər ağır deyil. Nəyə görə proqram belə ağırdır, anlamaq çətindir. Bunun müqabilində texniki fənlərin tədrisinə az saat ayrıldığı reallıqdır. Burada zərərli tərəf odur ki, texniki fənləri şagirdlər lazımi səviyyədə mənimsəyə bilmirlər. Fizika, kimya, biologiya fənlərinə ayrılan dərs saatı az olduğu üçün, şagirdlər proqramı tam mənimsəyə bilmir və repititor yanına üz tuturlar. Repititorluğu da şərtləndirən amillərdən biri elə dərs proqramının ağır olmasıdır"- deyə İ.Orucov qeyd etdi.

***İradə SARIYEVA***

# Gözlər yoldan yığılarmı...

## XATİRƏLƏR, DİLƏKLƏR...

**Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin "Xatirə Kitabı" Redaksiyası "Bakı-Xəbər" qəzeti ilə birgə layihə əsasında "Şəhidlər ölməz, Vətən bölünməz" seriyasından yeni bioqrafik sənədli povestin çapına başlayır. Xatırladaq ki, bundan öncə yenə həmin birgə layihə çərçivəsində "Gözlə gələcəyəm" adlı kitab uğurla yekunlaşdırılaraq təqdim edilib. Son illərdə bütün təbiətinin ecazkar koloriti, insanlarının yüksək bəşəri keyfiyyətləri ilə mənə doğmalaşan İsmayıllıyadır yolum yenə. Bu dəfə bu yurdun itkin-şəhidinin axtarışına çıxmışam. Respublika "Xatirə Kitabı"nın redaksiyası və "Bakı-Xəbər" qəzetinin birgə layihəsi əsasında baş redaktor Nəzakət xanım Məmmədovanın bir qədər kövrək, bir qədər duyğusal təklifindən qaynaqlanır bu səfərim. Qarşıda məni və oxucuları hansı yaşantılar gözləyir?!.. Tələsməyin. Sizi bir Vətən övladının kitab-dəftərə sığmayacaq taleyinin bəzi epizodları ilə tanış edəcəyəm. İtkin-şəhid Xəqani Eyvaz oğlu Əkbərovla ilgili, onlu-onsuz tale yolu, axtarışları ilə...**

**Telli xala: "Uzanırdım qarın içində, deyirdim qoy mən də balam kimi qarda ölüm, buzlayım, donum..."**

*Analar yanar ağlar*
*Dərdini sanar ağlar.*
*Dönər göy göyərçinə*
*Yollara qonar ağlar.*
*Bayatılarımızdan*

### Səksəkəli 25 il
***(On yeddinci yazı)***

Nəhayət, sizləri Telli xala ilə görüşdürürəm, əziz oxucular! Qarşımda itkin-şəhidimizin anası Telli xala əyləşib. Vətən, namus, qeyrət, böyük AZƏRBAYCANÇILIQ dəyərlərinin qorunması yolunda canını düşmən qabağında sipər eləmiş, taleyi sirli-qaranlıq əsgərimiz Xəqaninin anası ilə...



Onunla görüşünüzü özüm indiyə saxlamışam. Xəqani barədə bütün mümkün məlumatlarla tanış olandan, belə bir vətənpərvər soydaşımızı dərindən tanıyandan sonra Telli xalanı - itkin-şəhidimizi dünyaya gətirib-böyüdən ananı görmək, dinləmək sizlər üçün çox arzuolunandı yəqin. Dərd-sərini nə qədər ümumiləşdirsək, hamımızın dərd-səri sırasında görməklə onu ovundurmaq istəsək də, övlad itkisinin ağrı-acılarını, dözülməz iztirablarını canında, damarlarında donan qanında, iliklərində yaşadan ANA ilə həmsöhbət olmaq çox ağır gəlir mənə. Heç bir təsəlli verə bilməyəcəyim Telli ananı ovundurmağın nə qədər çətin olduğunu onun oğlanları Qinyazla, Elçinlə, Gündüzlə, digər doğmaları ilə söhbətlərimizin məğzindən yaxşı bilirsiniz artıq. Düzdü, bu təbəddülatları bütün həmsöhbətlərimlə təmaslarım zamanı yaşamışam. Ancaq Qinyazla, Elçinlə, Gündüzlə danışmaq bəlkə də asan idi. Telli xala ilə sadəcə görüşməyin özü belə mənə çox çətindi. İtirilmiş torpaqlarımızın fonunda, həmçinin itirilmiş insan, övlad, ciyərparə, Xəqani…bu ANAnı danışdırmalı, ümidləndirməli, başlıcası bu müqəddəs adın ağırlığı qabağında duruş gətirməlisən. 25 ildir Xəqanini bağrına basıb təskinləşmək nidası ilə yol gözləyən ANAnın... Qoy bu şərəfli adı ölməz dramaturq-şairimiz Cəfər Cabbarlının "ANA" haqqında bütün poetik nümunələrə meydan oxuyan məşhur əsərinin ikicə bəndinin dili ilə təqdim edək:

- Bunlar mənə əsər eylərmi! Mütləqa yox, yox,

Fəqət ana!O müqəddəs adın qabağında

O pak bağrına basıb məni desin lay-lay

Təbəssüm oynadaraq titrəyən dodağında.

Bütün vücudum əsər, ruhum eyləyər pərvaz,

Uçar səmalərə o aləmixəyalətdə.

Yatar, ölər bədənim, nitqdən düşər bir söz

Ana!Ana, sənə mən rahibəm itaətdə.

Xəqaninin itkin taleyindən dolayı yaranan ürək parçalayan nəticəsiz axtarış olaylarından tutmuş, elə ürəkləri dağlayan bəsit düşüncəli məişət söhbətlərinə qədər nələr yaşanmayıb 25 ildə bu ananın həyatında?! Bütün 25 ili səksəkə içində yaşamağın nə demək olduğunun təfərrüatlarını artıq ardıcıllıqla sapa da düzə bilmir Telli xala. Çəkdiyi iztirablar yəqin yaddaşını da korşaldıb itkin-şəhidimizin anasının. Onun Xəqaninin nakam taleyinə "Adsız qəhrəman" adlı poema həsr etmiş şairə Nəzakət xanıma illər öncə söylədikləri ilə müqayisədə illər sonra mənə söylədikləri arasında böyük fərqləri tutuşdururam. Bəs artıq müəyyən hissəsindən xəbərdar olduğunuz poema necə yaranıb?! Bir çox mətləbləri aşkara çıxarmaqdan ötrü sonradan Nəzakət xanımı da dilə tutmalı oluram...



...Telli xala səksəkəli yaşadığı, həyətdə, evdə, yolda hər bir maşının əyləcinin səsindən təşvişə düşüb "birdən maşından Xəqani düşüb gələr!" deyə tez-tez ürəkləndiyi, lakin hər dəfə də ümidinin boşa çıxmasından sarsılıb yerində büzüşüb oturduğu günlərin birində təsadüfən Nəzakət xanım Telli xala ilə görüşməli, hətta bir otaqda gecələməli olur. Telli xalanın artıq həyat tərzinə çevrilmiş səksəkəli anlar bəzən günlərlə onun gecə yuxularına da haram qatırmış. O, gecələri də sübhə qədər eyni təşviş içində - qulağı bayırdan Xəqanini gətirəcək bir maşın səs-səmirinin həsrəti ilə səhərədək "dirigözlü" açırmış. Nəzakət xanım həmin dirigözlü gecələrin birinin şahidi ola bilibmiş, sən demə. Belə ki, şairə səhər açılana qədər Xəqanidən - onu bir an da tərk etməyən oğul itkisinin arxasınca buraxdığı sağalmaz yaralardan, oğlunun nakam taleyindən, uşaqlığından, kənddəki həyatından, işgüzarlığından, əsgər getməsindən, ali məktəbdə oxumasından, Qarabağa yollanmasından, nişanlanmasından, nişanlını necə seçməyindən, nişanlısının illərlə bu sevgiyə sədaqət göstərməsindən, oğlu itkin düşəndən sonra onunla xoş rəftarından və bitib-tükənməyən irili-xırdalı bütün olaylardan danışan Telli xalanın özü kimi həmin gecəni dirigözlü açan qonağına çevrilibmiş. Uzun gecəni əfsanələşmiş həyat həqiqətini bir azərbaycanlı və təbii ki həm də şairə marağı ilə dinləyibmiş Nəzakət xanım...beləcə ərsəyə gəlib əvvəlki yazılarda Xəqani ilə ilgili hissələrini oxuduğunuz "Adsız qəhrəman". Bu yazımızda poemanın Xəqaninin nişanlısına həsr olunmuş parçaları ilə də tanış olacaqsınız:

*- Üzünü söykəyib qara bəxtinə,*
*Hər gün bulud-bulud bir gəlin ağlar.*
*Boyunu doyunca oxşamadığı*
*Bir nakam sevginin heykəlin ağlar.*

*Üzünə dağılan qara saçları*
*Qara kağızıdır qara sevdanın.*
*Ömrün baharında lalələr kimi,*
*Düşüb sinəsinə yara sevdanın.*

### İnsan itkinliyinin cızdığı müdhiş mənzərə...

...Nitqi rabitəli olsa da, qırıq-qırıq danışır Telli xala. Əlbəttə, asan deyil ona danışmaq. Həm də bu qeyri-müəyyənlikdən danışmaq. Fikrimcə, Xəqaninin qaranlıq taleyini illərlə düşünmək onun düşüncələrini də yorub. Nə qədər ah-nalə çəkmək olar?! Nə qədər özündən yalandan da olsa işıqlı xəyallar qurub bu aləmin içində xəyallar üstündə yaşamaq olar?! Nə qədər gerçəklikdə addım səslərindən sevinib, bəzən hətta uşaq sevincilə qapıya qaçmaq və sevincin illuziyadan



başqa heç nə olmadığından peşmançılıq hissi keçirmək olar?! Yazıcı İsa Hüseynovun ssenarisi əsasında çəkilmiş məşhur "Tütək səsi" filmində oğlu cəbhədən qayıtmayan İsfəndiyar kişinin qulağının saz səsi eşitdiyi və bu obrazı canlandıran gözəl aktyorumuz Məmmədrza Şeyxzamanovun ahıl yaşında necə qaça-qaça evə gəldiyi səhnəni hamınız görmüsünüz. Bütün kənd camaatının müşayiəti və təəccüblü baxışları altında evinə qədər qaçan qoca son anda nəyin şahidi olur: həmişəki kimi evdə bir gəlin, bir nəvə və İsfəndiyar kişinin qulaqlarında səsi əks-səda verən, əslində isə həmişəki kimi oğlunun gedişindən sonra divardakı xalçanın üzərində asılı qalan susqun saz. Atanın bütün gözləntiləri, ürəyində qurulmuş bayram ovqatı bir anda yox olur. Görün, Telli xala bu halı 25 ildə əri Eyvaz kişinin sağlığında və ondan sonrakı tək çağlarında nə qədər yaşayıb!..



...Amma Telli xalanın yaşantıları təkcə bununla da bitməyib. Oğlu Gündüzün ata evində onunla bərabər həyat sürdüyü zamanlarda baş verən olaylar barədə danışdıqlarından məlumatlısınız. Bunlar Gündüz müəllimin gördükləri, duyduqları, hiss etdikləri idi. O, uzun illər evlərində oğul, qardaş, övlad itkisinin iztirablarından yaşananların bir qismini nəql etmişdi. Daha dərinliklərdə gör nələr var imiş?!.. Əslində şəhidlikdən, ölümdən fərqli olaraq itkinliyin - insan itkinliyinin cızdığı müdhiş mənzərə ananın özündən biixtiyar yol verdiyi hərəkətlərdə nə qədər adekvat görüntülənir. Onunla söhbətimdən bir frazaya diqqət edin. Gündüzlə söhbətimiz zamanı kənardan bizi dinləyən Telli xala özünü saxlaya bilməyib söhbətə qoşulur və nələr söyləyir:

- Birdən görürdüm ki, qar yağıb. Evdəkiləri yuxuya verib düşürdüm həyətə. Deyirdim Xaqan qarda ölüb, görəsən necə ölüb?!.. Gedib xəlvətcə otururdum, uzanırdım qarın üstündə, girirdim qarın içinə. Deyirdim qoy mən də balam kimi ölüm, buzlayım, donum qalım qarda. Qar elə bil bir az soyudurdu yanğılarımı... Birdən fikirləşirdim ki, bəlkə heç ölmüyüb balam?!Evdəkilər duyuq düşürdülər. Gəlib məni ərki çatanı danlaya-danlaya, öyüd-nəsihət verə-verə, ərki çatmayanlar dilə tuta-tuta birtəhər yerdən qaldırıb dartıb aparırdılar evə...

Bu sözləri eşidəndən sonra dərindən köks ötürüb bir xeyli susmalı oluram. Əslində daxilimdəki instikt məni məcbur eləyir susmağa. Bu yaşanmışların qabağında sözlər aciz deyilmi?!.. Səksən yaşını haqlayaraq ölümlü-itimli-qalımlı dünyanın bütün çalarlarını görmüş, öz canındasa onun ən məşəqqətlisini yaşamış Telli anaya hansı təskinliyi vermək olardı bu yerdə?!.. burda sözlər susur, ancaq ananın, valideynin övlad həsrəti, övlad dağından da artıq övlad itkisinin yaratdığı təlatümlü anlar bütün düşüncələrə hakim kəsilir.

Telli xala susqunluğumu görüb özü davam edir söhbətimizə:

- Hər dəfə yollara çıxanda elə bilirdim Xaqan indi qarşıma gələcək, yanımdan ötəcək, istəyirdim elə qalım bu yolların üstündə. Ürəyim həmişə səksəkədə, gözlərim yollarda olub, ancaq ağlamaqla ürəyimi boşalda bilmişəm bu illəri (Gündüzün müsahibəsindəki sözlərini xatırlayırsızmı: heç kimi eşitmədi, o qədər ağladı-sızladı ki bu illəri, axırda gözləri də tutulmağa başladı anamın. Bu sözlər yadıma "Dədə Qorqud" filmində atası Bəyburanın illərlə yollar üstə durub Beyrəyi gözləməkdən, ağlamaqdan gözlərinin tutulmasını canlandıran epizodu xatırlatmışdı mənə. Ata-ana övlad yolunda hər şeyindən, sağlamlığından da keçər, təki ondan xoş bir soraq eşitsin - N.Z.). Hər qapı cırıltısından, hər gülmək, ağlaşmaq səsindən diksinmişəm ki, birdən Xaqanın ya özü, ya da necəsə sorağı gələr. Allah müharibə od-alovunu söndürsün, bir daha heç kimi belə əzaba düçar eləməsin, heç kimə belə dağı göstərməsin! Çəkməklə qurtaran müsibət deyil bu, bala.

### "Dedim nişanlısı gəlsin, saxlayım evimdə, ancaq bizdə qalmayıb..."

Hələ Xəqani haqqında o zaman az-çox bəlli olan məlumatlarla tanış olarkən İsmayıllının Gəraybəyli kəndindən belə bir oğulun itkin düşdüyü, itkin düşərkən, daha doğrusu cəbhəyə yollanarkən nişanlı olduğu, uzun illər nişanlısının gəlib qayınanası - Xəqaninin anasının yanında yaşadığı, nəhayət, ananın ona xeyir-dua ilə ailə qurmasına razılıq verdiyi kimi bir qədər tükürpədici, bir qədər insanlıq baxımından yüksək dəyərləndirilməsi faktların olduğunu söyləmişdilər bizə. Telli xala ilə söhbətim zamanı onun yarasının qaysağını qopartmamaq üçün qələm adamına məxsus spesifik yanaşmalarla bu fakta da aydınlıq gətirmək istədim. Bu yanaşmam deyilənlər şəkildə olmasa da, yaranmış söz-söhbətin təfərrüatlarını ortaya qoymaqla yanaşı, bəzilərinin milli mentalitetimizə xas olmayan naqis əməllərini də üzə çıxarmış oldu.

***(Ardı 14-cü səh.)***

(Əvvəli 13-cü səh.)

Telli xala söylədi ki:

- Evimdə gətirib saxlamamışam. Yaxşı rəftarımız olub. Axıracan bir-birimizin hörmətini, yolunu saxlamışıq. Həm qızın özü, həm də qohum-qardaşı ilə. Bir kəndik, el-obayıq hamımız. Qız da bilirsiz ki, məktəbdə müəllimə işləyirdi. Abırla-ismətlə oturub gözlüyürdü. Necə biz gözlüyürdük, eləcə də o gözlüyürdü. Biz necə məyus olmuşuq bu illəri, o da bizimlə birgə məyus olub, bizimlə dərdləşib, bir yerdə ağlamışıq, bir yerdə susub-sakitləşmişik. Ancaq belə bir pis hadisə baş vermişdi. Bir nəfərin qızla sözləri çəpləşəndə qayıdıb ona sərki vermişdi ki, sən yaxşı adam deyilsən, yaxşı adam olsaydın, nişanlın gedib it-bata düşməzdi, yanında olardı. Bəlkə də daha ağır qaxınclar demişdi ona, ancaq mənə çatdırılan bu olmuşdu. Bax, onda dedim ki, gəlsin qalsın mənim yanımda, saxlayıram özüm. Bu sözü demişəm. Amma gəlib bizdə qalmayıb.

Dəhşətə - mənəvi şikəstliyə fikir verirsinizmi, əziz oxucular! Vətənin, torpağın, namusun, qeyrətin uğrunda kimsə gedib canını qoyur, yaralanır, ölür, düşmən öldürür, hətta itkin düşür, sən isə belə bir insanın, həmyerlinin, eloğlunun taleyinə yanmamağın cəhənnəm, bu böyük, ağır yükü çəkə bilməməyin bir yana, üstəlik onu qınaq obyektinə də çevirməyə ürək edirsən!.. Nə edə bilərik ki... belə təfəkkür daşıyıcıları da var aramızda... Hərə bir düşüncənin daşıyıcısı, hərə bir taleyin yol yolçusudu...

*- Vaxt hakimlər hakimidi,*
*Həyat, varkən yox kimidi.*
*Yaydan çıxan ox kimidi*
*Hər ömrün öz hədəfi var.*

*Ürəkdədir sözün kökü,*
*Ayıra bil tükdən tükü,*
*Çox ağırdır amal yükü,*
*Çəkə bilsən, şərəfi var.*

*Ürək fikrin tilsimidi,*
*Hər qatı bir lay kimidi.*
*İnsan - göydə Ay kimidi,*
*Görünməyən tərəfi var.*

*(Bəxtiyar Vahabzadə)*

Şübhəsiz ki, "hər ömrün təkrarlanmayan bir hədəfi, qisməti var", bəs bu insanları necə tanıyaq, necə biri-birindən ayırd edək, ayın görünməyən tərəflərinə necə nüfuz edək görəsən?!Üstəlik, necə təbliğ edək ki, hamı bu VƏTƏNİ özününkü bilsin, heç olmasa onun uğrunda qurban gedənlərə dəyər versin, axı onlar olmasa heç bu torpaqlar da bizim olmazdı. O zaman nəyin üstündə rahat yaşayıb belə qarğış, sərkinizdə söyləyəcəkdiniz?.. Biz torpaqlarımıza, tarixi yurd yerlərimizə göz dikən ermənilərlə mübarizə, müharibə aparırkən...

Əfsuslar olsun ki, dünyamızı çirkləndirən elə bu tipli düşüncələrdir. Maddi çirklənməni təmizləmək üçün nəfsinə qul olmamaq, səliqəsizliyi təmizləmək üçün sadəcə təmizkar, tələbkar, məsuliyyətli ola bilmək yetərlidi. Fiziki şikəstlik tale məsələsi, alın yazısıdı. Ən böyük şikəstliksə təfəkkürün, düşüncənin şikəstliyidi. Hamılıqla bu yöndəmsiz hisslərdən -"qarğış, şər, böhtançılar" kimi tanınmaq xislətindən xilas ola bilsəydik, dünyamız nə qədər gözəlləşərdi:

*- Bütün nifrətləri,*
*xəyanətləri,*
*Bütün qəzəbləri,*
*o acıqları*
*Yıxıb, ayağının altına alıb,*
*Yaxşılıq əlindən tutub ucalıb,*
*Tərtəmiz ürəklə, dumduru gözlə*
*Dünyaya baxanda,*
*dünya nə gözəl,*
*Həyat nə işıqlı görünür, Allah!*
*Tikan da çiçəyə bürünür, Allah!*
*Cığırlar nə geniş, yollar nə təzə,*
*Üzlər nə mehriban, dillər nə şirin,*
*Adamlar nə doğma görünür gözə!*

*(Musa Yaqub)*

Telli xala sonra Xəqaninin yolunu illərlə gözləyən nişanlısının ailə qurmasını da dilə gətirdi:

- Gəldilər, icazə istədilər. Mən də icazə verdim ki, mənim oğlumdan onsuz da xəbər-ətər yoxdu, bala sən get, ailəni qur, xoşbəxt ol. Bunu deməkdən başqa neyləyə bilərdim ki (ağlayır). Bu, Allaha da xoş gedər. Ancaq toya-filana getməmişəm. Getsəydim özümü cilovlaya bilməzdim, pis olardım, o yazığın da məclisində qanıqaraçılıq yaranardı.

- Aydındı. Qızın adı nə idi?

- Mahizər.

- Anası adına Mahizər dedi -
Mahizər olmadı ona taleyi.
Ömrü cilvələndi bir sona kimi,
Bəxti yaşamadı sona taleyi.
Bu necə yazıdır, bağışla Allah!
Tale belə olmur, bəxt belə olmur.
Nə qədər göz yaşı axıdıb bu qız,
Sənin səbr kasan dolmur ki dolmur.
Ümid ürəyindən didərgin düşüb.
Çırpınır ovcunda canı bu qızın.
Fələk ayna tutub göz yaşlarına,
İlahi, sevinci hanı bu qızın?!
Bir üzü gəlindi, bir üzü qızdı,
Bəyaz əllərinin hənası ağlar.
Nə vaxtdı üzünə həsrət qalıbdı,
Gəlin otağında aynası ağlar.
Bu bəxtsiz gəlinin, bu yetim qızın,
Çarəsiz halını kaş ki görəsən.
İlahi, bağışla iltimasımı,
Bəlkə taleyinə əl gəzdirəsən.

(Nəzakət Məmmədova. "Adsız qəhrəman" poeması)



Yuxulardakı, aşkardakı Xəqani...

Telli xala söhbətimiz zamanı artıq yazıya aldığımız, sizlərə də məlum olan bir çox məsələləri dilə gətirdi. Övlad yanğısının onun həyatında yaratdığı dözülməz məqamlardan, həsrətlə Xəqaninin yolunu gözləyən boş qalmış ata yurdundan çox danışdı. Danışmasaydı da belə, övlad itkisinin onun əsl azərbaycanlı anasına məxsus nurani çöhrəsində buraxdığı silinməz dərin izlər, onun nələr çəkdiyini əyani şəkildə sübuta yetirdi. Ümidini daha çox Xəqanini tez-tez gördüyü yuxulara bağlayan itkin-şəhidin anasına ünvanladığım sonuncu sual da onun yuxularını çözmək istəyim oldu:

- Telli xala, yuxularında görürsən Xəqanini?

- Görürəm bala.

- Necəgörürsən?

- Əvvəl aşkara gördüyüm kimi. Birdən görürəm ki, atası taya qoyur, bu da yaba ilə ona aşağıdan ot verir. Elə belə də olurdu. Mənim balam çox işgüzar uşaq idi. Birdən yuxuda görürəm sel gəlir. Xaqan da lopatkanı (bel) götürüb gedir selin-suyun qabağını kəssin, ya başqa səmtə döndərsin. Yuxularımda bax belə-belə görürəm...

- Yuxularınız çin olsun!

- Amin!

*(ardı var)*

***Nəzirməmməd ZÖHRABLI***

# Ermənistanın Azərbaycana təcavüzü nəticəsində itkin düşmüş soydaşlarımız unudulmayacaq...

**1988-ci ildən başlayaraq Ermənistanın təcavüzünə qarşı döyüşlərdə itkin düşmüş şəxslərlə bağlı Dövlət Komissiyası və Respublika Xatirə Kitabının birgə böyük həcmli və tarixi əhəmiyyətli işinin bir hissəsi yenicə yekunlaşıb. Minlərlə Azərbaycan vətəndaşının itkin düşdüyü ana qədərki həyat yolunu özündə əks etdirən dörd cildlik xüsusi buraxılışın ilk cildi artıq çapdan çıxıb. İlk cilddə 922 nəfər gənc, yaşlı qadın, kişi və uşaqlardan ibarət Azərbaycan vətəndaşı barədə məlumatlar yer alıb. Geniş oxucu marağını nəzərə alaraq, həmin nakam soydaşlarımızın bir neçəsi barədə məlumatı gündəlik olaraq yenidən sıra ilə təqdim etməyi qərara aldıq. Daha ətraflı məlumatı Xatirə Kitabının www.xatirekitabi.az saytından əldə edə bilərsiniz. Beləliklə, sözügedən nəşrdə yer alan itkin soydaşlarımızla bağlı məlumatları diqqətinizə çatdırırıq:**

**(Əvvəli ötən saylarımızda)**

**AYTAMOV TƏRLAN NƏZÜRMƏT oğlu**



17 aprel 1974-cü ildə Azərbaycan Respublikası Xaçmaz rayonunun Xudat qəsəbəsində (indi şəhər) doğulmuşdur. Hərbi xidmətə qədər Xaçmaz rayon mərkəzində yaşamışdır. Xaçmaz RHK tərəfindən hərbi xidmətə çağırılmışdır. Hərbçi. Aytamov Tərlan Nəzürmət oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 30 mart 1993-cü ildə Kəlbəcər rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Aytamov Tərlan Nəzürmət oğlu 30 mart 1993-cü il tarixində Kəlbəcər rayonunun Milli-2 kəndi ərazisində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı yaralı vəziyyətdə döyüş bölgəsində qalaraq naməlum şəraitdə itkin düşmüşdür və onun erməni terrorçu-quldur dəstələri tərəfindən əsir götürüldüyü ehtimal olunur.

Aytamov Tərlan Nəzürmət oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**AZAYEV FƏALİYYƏT TƏVƏKKÜL oğlu**

11 fevral 1974-cü ildə Azərbaycan Respublikasının Zərdab rayonunda doğulmuşdur. Hərbi xidmətə qədər Zərdab rayon mərkəzində yaşamışdır. Zərdab RHK tərəfindən hərbi xidmətə çağırılmışdır. Hərbçi.



Azayev Fəaliyyət Təvəkkül oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 16 iyun 1993-cü ildə Ağdam rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Azayev Fəaliyyət Təvəkkül oğlu 16 iyun 1993-cü il tarixində Ağdam rayonunun Xaçınstroy adlanan ərazisində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı naməlum şəraitdə itkin düşmüşdür.

Azayev Fəaliyyət Təvəkkül oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**AZAYEV İLQAR AĞASƏLİM oğlu**



29 avqust 1968-ci ildə Azərbaycan Respublikasının Bakı şəhərində doğulmuşdur. Hərbi xidmətə qədər Bakı şəhərinin Əzizbəyov (indi Xəzər) rayonunda yaşamışdır. Könüllü olaraq Milli Ordu sıralarına qoşulmuşdur. Hərbçi. Azayev İlqar Ağasəlim oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 1 yanvar 1992-ci ildə Xocalı rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Azayev İlqar Ağasəlim oğlu 1 yanvar 1992-ci il tarixində Xocalı rayonunun Xramort (indi Pirlər) kəndi ərazisində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı naməlum şəraitdə itkin düşmüşdür və onun erməni terrorçu-quldur dəstələri tərəfindən əsir götürüldüyü ehtimal olunur.

Azayev İlqar Ağasəlim oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**BABAKİŞİYEV GÜLƏLİ ƏBDÜLRƏHİM (NİZAMİ) oğlu**

30 yanvar 1975-ci ildə Azərbaycan Respublikasının Lənkəran rayonunda doğulmuşdur. Hərbi xidmətə qədər Lənkəran rayonunun Quruba kəndində yaşamışdır. Lənkəran RHK tərəfindən hərbi xidmətə çağırılmışdır. Hərbçi. Babakişiyev Güləli Əbdülrəhim oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 26 yanvar 1994-cü ildə Füzuli rayonu ərazisində itkin düşmüşdür.



Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Babakişiyev Güləli Əbdülrəhim oğlu 26 yanvar 1994-cü il tarixində Füzuli rayonunun Horadiz qəsəbəsi (indi şəhər) ərazisində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı naməlum şəraitdə itkin düşmüşdür.

Babakişiyev Güləli Əbdülrəhim oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**(Ardı növbəti sayımızda)**

Son zamanlar Bakıda müştərisi bol olan restoranlar depozit əsasında fəaliyyət göstərməyə başlayıblar. Müştəri masa arxasına əyləşdikdə, nə sifariş verməsindən asılı olmayaraq, restoranın minimum məbləğini ödəməlidir.

# Bakı restoranlarında müştərilər əleyhinə yeni tələ - "depozit"...

## Eyyub Hüseynov: "...həmin restoranı boykot etməklə..."



*"Bu, istehlakçıların hüquqlarının pozulması deməkdir"*

Bu məbləğ isə adətən 50 manatla 150 manat arasında dəyişir. Araşdırmalara görə, restoranlarda depozit tələbi ilk olaraq "Neolit"də tətbiq olundu. Daha sonra isə digər restoran və iri çay evləri də depozit tələbini tətbiq etdilər.

Qeyd etdiyimiz kimi, restoranlarda depozit məbləği 50-150 manat arasında dəyişir. Çay evlərində isə 50-100 manat dəyərində depozit tələb olunur.

Depozitlərin digər məqsədi müştəriləri müəyyən maddi-sosial təbəqədə formalaşdırmaqdır. Belə depozitlər, əsasən, həftəsonu günün ikinci yarısında və ya xüsusi günlərdə daha çox tətbiq edilir və əvvəlcədən müştəriyə məlumat verilir. Təbii ki, bu hal isə bəzi vətəndaşların haqlı narazılığına səbəb olur.

Restoran rəhbərləri qeyd edirlər ki, son illər ölkəyə gələn turistlərin sayı çox olduğu üçün, onlar depozit tələbini tətbiq etməyə başlayırlar. Əgər yerli vətəndaş depozit ödəməyib restoranın hansısa kabinetində oturmaqdan imtina edərsə, o zaman əcnəbi turist 50 manatlıq depozitin ikiqatını ödəyib məkanda əyləşib istirahət edəcək.

**Restoranların depozit tələb etməsinə münasibət bildirən Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, bu hal qanunla tənzimlənmədiyindən, restoranlar sui-istifadə edirlər:** "Müştərilər bu hala yalnız həmin restoranı boykot etməklə cavab verə bilərlər ki, sahibkar qaydaları ləğv etməyə məcbur olsun".

Onun sözlərinə görə, əksər inkişaf etmiş ölkələrdə restoranlar müştəridən depozit tələb etmirlər: "Restoranların müştəridən depozit tələb etməsi "beh" almaq kimi başa düşülür. Bu, istehlakçıların hüquqlarının pozulması deməkdir. Bu cür ödənişin tələb olunması tamamilə qanunsuzdur. Bu, birbaşa Azərbaycan turizminin inkişafına zərbədir. Biznes qurumu öz xidmətinə görə qiymət qoya bilər, ancaq yemək yeyilmədən, sadəcə, rezerv üçün əlavə depozit tələb etməsi düzgün deyil".

*Günel CƏLİLOVA*

Ölkə iqtisadiyyatının inkişafı istiqamətində görülən işlər sayəsində son illər ölkəyə gələn turistlərin sayı artır. Ölkəmizdə keçirilən beynəlxalq yarışlar turist sayının artmasına təsir edir. Məlumdur ki, son illər ölkəmizdə beynəlxalq əhəmiyyətli yarışlar keçirilir. Bu il də ölkəmizdə "Formula" idman yarışı keçiriləcək.

# Yeni turizm mövsümü başlayır, Bakıda valyutadəyişmə məntəqələrinin sayı ətrafında müzakirələr var...



***Tahir Mirkişili:** "Exchange"lərin bərpası və lazımi yerlərdə açılması turizmin inkişafına, gəlirlərin artmasına səbəb ola bilər"*

***Fuad İbrahimli:** "...turistlərin rahat istifadəsi üçün valyutadəyişmə məntəqələrinin sayı yetərincə deyil"*

Yarışı izləmək üçün ölkəmizə çoxlu sayda turist gələcək. Tək yarışı izləmək üçün deyil, eyni zamanda, istirahət üçün ölkəmizə təşrif edəcək turistlərin sayı mövsümlə əlaqədar olaraq artacaq.

Ancaq turistləri narahat edən məsələlərdən biri də şəhərdə valyutadəyişmə məntəqələrinin sayının hələ də az olmasıdır. Demək olar ki, yox dərəcəsindədir. Turist, istərsə də yerli vətəndaş pulu dəyişmək üçün banka müraciət etməlidir. Məlumdur ki, banklar şənbə və bazar günləri işləmirlər. Belə olan halda, turistlər əlində olan vəsaiti manata çevirməkdə çətinlik çəkirlər.

Xatırladaq ki, paytaxt Bakıda valyutadəyişmə məntəqələrinin yenidən açılması üçün qanunvericilik aktları qəbul olunub, müvafiq qərarlar verilib. Son olaraq parlament "Valyuta tənzimi haqqında" Qanuna dəyişiklik edilməsi barədə qanun layihəsini qəbul edib. Bu dəyişikliklə valyuta mübadiləsi fəaliyyətinə lisenziyaların verilməsi proseduru sadələşib.

Qeyd edək ki, maliyyə bazarlarına nəzarət orqanı valyuta mübadiləsi fəaliyyətinə lisenziya verərkən onu müvafiq icra hakimiyyəti ilə razılaşdırmalı deyil. Hazırda "Exchange"lərin fəaliyyətinin qarşısında heç bir əngəl yoxdur. Lakin yenə də paytaxtda valyutadəyişmə məntəqələri gözə dəymir. Qarşıdan isə yay gəlir, turizm mövsümü başlayır. Valyutadəyişmə ilə bağlı problem yenə də özünü göstərəcək.

**Millət vəkili Tahir Mirkişili bildirdi ki, valyutadəyişmə məntəqələrinin açılması ilə bağlı qanunvericilikdə hər hansı maneə yoxdur:** "Ancaq valyutadəyişmə məntəqələrinin açılması ilə bağlı qərarı birbaşa Maliyyə Bazarlarına Nəzarət Palatası verməlidir. Belə fikir də var ki, "Exchange" açan sahibkarlardan 50 min manat depozit tələb olunması da onları bu işdən çəkindirir. Ancaq bu yalnız icra orqanlarının təhlili nəticəsində ortaya çıxa bilər ki, "Exchange"lərin açılıb-açılmaması ilə bağlı hansı baryerlər var".

Millət vəkili onu da vurğuladı ki, ölkəyə gələn turistlər nağd deyil, daha çox kart vasitəsilə ödəniş etməyə üstünlük verirlər: "Artıq Azərbaycanda nağdsız ödəmə infrastrukturu kifayət qədər inkişaf edib. Ancaq turistlərdən bir qisminin nağd ödəniş etdiyini də nəzərə alsaq, "Exchange"lərin bərpası və lazımi yerlərdə açılması turizmin inkişafına, gəlirlərin artmasına səbəb ola bilər".

**İqtisadçı-ekspert Fuad İbrahimli qəzetimizə açıqlamasında qeyd etdi ki, 2015-ci ildə aidiyyəti qurumların qərarı ilə ölkədə valyutadəyişmə məntəqələrinin fəaliyyəti dayandırıldı.** Bu qərardan sonra Bakı və bölgələrdə "qara bazar" yaradıldı. Bir müddət sonra valyutadəyişmə məntəqələrinin açılışına şərait yaradıldı: "Valyutadəyişmə məntəqələrinin yaradılmasına icazə verilsə də, "exchange"lərin sayı hələ də azlıq təşkil edir. Turizmin inkişaf etdiyi zamanda, idman yarışlarının başlanacağı ərəfədə turistlərin rahat istifadəsi üçün valyutadəyişmə məntəqələrinin sayı yetərincə deyil. Valyutadəyişmə məntəqələrinin çox olması ölkəmizə gələn turistlərin, qonaqların burada işini asanlaşdıracaq. Valyutadəyişmə məntəqələrinin olmaması və ya sayının az olması ölkəmizə gələn qonaqları əziyyətə salır. Məsələn, turist əlində olan vəsaiti dəyişmək üçün olduğu ərazidən 3-4 prospekt aralıda istədiyini edə bilir.

Məlumat üçün bildirim ki, xarici ölkələrdə bu məntəqələr daha sıx yerləşir. Şərait yaratmaq, optimallaşdırmaq lazımdır. Bu halda, ilk növbədə, dövriyyənin artımı müşahidə olunacaq, rahatlıq əmələ gələcək".

*Günel CƏLİLOVA*

# Qida Təhlükəsizliyi Agentliyi adından rüşvət toplayan yalançı şəxslərin görüntüləri yayıldı

**Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi (AQTA) qurum adından rüşvət toplayan şəxslərin görüntülərini yayıb.**



Agentlikdən "Trend"ə bildiriblər ki, son günlər AQTA-ya qurumun adından istifadə edərək kiçik və orta sahibkarların fəaliyyətinə qanunsuz müdaxilə edən, əsassız tələblər irəli sürən şəxslərlə bağlı ayrı-ayrı rayonlarından şikayətlər daxil olub.

Daxil olmuş növbəti məlumatın araşdırılması zamanı Bakı şəhəri, Sabunçu rayonu, Ramana südçülük sovxozunda heyvan kəsimi və ət satışı məntəqələrindən özlərini Agentliyin əməkdaşları kimi təqdim edən və sahibkarlardan aylıq pul tələb edən şəxslərlə bağlı şikayətlər öz təsdiqini tapıb.

Belə ki, araşdırmalar zamanı sahibkar tərəfindən əvvəlcədən mağazada quraşdırılmış kamerada həmin şəxslərin və istifadə etdikləri minik avtomobilinin foto və video görüntülərinin əks olunduğu müəyyən olunub.

AQTA bəyan edir ki, bu şəxslər Agentlik əməkdaşları deyil və qanunazidd hərəkətlərə yol verən həmin şəxslərin əməlinə hüquqi qiymət verilməsi üçün məlumatlar aidiyyəti üzrə hüquq-mühafizə orqanlarına təqdim olunub. Bildirilir ki, dövlət orqanın nüfuzuna xələl gətirməyə cəhd göstərən şəxslərin qanunsuz əməllərinin qarşısı bundan sonra da qətiyyətlə alınacaq.

Agentlik sahibkarlardan bu kimi dələduzluq faktları ilə qarşılaşdıqları zaman hüquq-mühafizə orqanlarına və ya Qida Təhlükəsizliyi Agentliyinin 1003 saylı "Çağrı Mərkəzi"nə məlumat verməyi xahiş edir.

№ 66 (3964) ■ Qiymәti: 40 qәpik

# BAKI XӘBӘR

13-15 APREL 2019-cu il

www.baki-xeber.com

# Poçt göyәrçini fantastik qiymәtә - 1,2 milyon avroya satıldı

## Şotlandiyada 5 min illik abidәnin üzәrinә qrafiti tәsvir edilib

Şotlandiyanın Orkni bölgәsindә 5000 il әvvәl tikilәn Neolitik mәrasim sahәsi olan "Brodqarın üzüyü" (Ring of Brodgar) abidәlәrinin üzәrinә qrafit tәsvir edilib. Belә ki, bir-birindәn aralı dayanan 27 abidәdәn birinin üzәrinә qrafit tәsviri müşahidә edilib. "AZӘRTAC" bildirir ki, polisdәn verilәn mәlumata görә, bu qiymәtli әsәrlәrә qarşı edilәn vandalizm araşdırılır vә günahkarlar cәzalandırılacaq. Qeyd edәk ki, Böyük Britaniyanın adalarında üçüncü әn böyük daş dairәsi olan abidәlәr UNESCO-nun Dünya İrs Siyahısına daxildir.



**Belçikada poçt göyәrçini rekord qiymәtә - 1,2 milyon avroya satılıb. "Trend" xәbәr verir ki, "Armando" adlı göyәrçini kimliyi açıqlanmayan çinli milyonçu alıb.**

Poçt göyәrçini gündәlik 1100 kilometrdәn çox mәsafә qәt edә bilir. Onun orta uçuş sürәti saatda 90 kilometrә yaxındır. Maksimal sürәti isә saatda 150 kilometrә çatır. Ticarәt sessiyasında ümumilikdә iki milyon avro mәblәğindә 178 Flandriya göyәrçini satılıb. Qeyd edәk ki, göyәrçinlәr çox qәdimdәn insanlar tәrәfindәn әhilәşdirilmәyә başlanılıb. İnsanlar onlardan poçtalyon kimi dә istifadә ediblәr. 11-12-ci әsrlәrdә göyәrçinlәr cins atlar qәdәr qiymәtli olublar. Poçt göyәrçinlәri uzaq mәsafәlәri qәt edә bilirlәr. Әn uzaq mәsafәyә uçan göyәrçinin rekordu 1689 mildir, yәni tәxminәn 2719 km-dir.



# Misirdә canlı yayımda açılan mәzar kimindir...

**Misirdә sarkofaqın üstü açılıb. Yalnız bir neçә nәfәrә daş tabutu açmaq şansı nәsib olub.**

"AZӘRTAC" bildirir ki, bu barәdә danışan "Discovery" telekanalı verilişlәrindәn birindә hadisәni canlı olaraq yayımlayıb. Qәbirin üstünü açan Zahi Havass mumiyanın 2.500 il tarixi olduğunu vә onun bizim dövrümüzә qәdәr çox yaxşı qaldığını bildirib. Ekspertlәr qeyd ediblәr ki, bu, qәbir bilik, yazıçılıq, musiqi simvolu sayılan Misirin "Tot" allahının qәbri ola bilәr. Kadrlardan görünür ki, mumiya kәtan parçaya bükülüb vә üzәrindә qızıldan plitәlәr var. Bunlara görә dә onun varlı zadәgan ailәsinә mәnsub olması fәrziyesi irәli sürülür.

## "Azercell" "TİBO-2019" beynәlxalq sәrgi-forumunda

**"Azercell" Azәrbaycan nümayәndә heyәtinin tәrkibindә Belarus Respublikasının Minsk şәhәrindә keçirilәn 26-cı Telekommunikasiya, Rabitә, Tәhlükәsizlik vә İnformasiya Texnologiyaları üzrә ixtisaslaşdırılmış beynәlxalq "TİBO-2019" sәrgi-forumuna qatılıb.**

Ölkәmizin dövlәt qurumları vә özәl şirkәtlәrinin 15-ә yaxın tәmsilçisinin daxil olduğu nümayәndә heyәtinә nәqliyyat, rabitә vә yüksәk texnologiyalar nazirinin müavini Elmir Vәlizadә rәhbәrlik edib.

16 ölkәdәn 100 şirkәtin nümayәndәsinin qatıldığı forum MDB vә Baltikyanı ölkәlәrin әn böyük İKT tәdbirlәrindәn biri hesab olunur. "Azercell" nümayәndәlәrinin dә iştirak etdiyi bu sәrgi texniki vә biznes imkanlarını genişlәndirmәk üçün yeni әmәkdaşlıqlar qurmaq, әn son texnoloji trendlәrin müasir cәmiyyәt hәyatına sirayәt edilmәsi mövzusunda maraqlı tәcrübәlәrdәn bәhrәlәnmәk baxımından böyük әhәmiyyәt kәsb edir.

"TİBO-2019" sәrgi-forumunda ölkәmiz Milli Pavilyonla tәmsil olunur. Pavilyonda ölkәmizin İKT sahәsindә әldә etdiyi nailiyyәtlәr nümayiş etdirilir. Vurğulamaq istәrdik ki, ölkәmizin tәmsil olunduğu pavilyon "Әn Yaxşı Stend" kimi tәltif edilib.

Rәqәmsal alәmin yeniliklәrini abunәçilәr üçün әlçatan etmәyi hәdәflәyәn "Azercell" beynәlxalq tәcrübәlәrdәn bәhrәlәnәrәk bu istiqamәtdә fәaliyyәtini daha da tәkmillәşdirәcәk.

Daha әtraflı mәlumat üçün news@mcs.az ünvanına müraciәt edә bilәrsiniz.

## Elan

Şәki rayonu, Çayqaraqoyunlu kәndi әrazisindә yerlәşәn "Alaqapı" MMC-yә mәxsus texniki pasport itdiyi üçün etibarsız sayılır.

Daxili İşlәr Nazirliyi tәrәfindәn Xasiyev Rasim Paşa oğlunun adına 16.02.2001-ci il tarixindә verilmiş №014485 müharibә veteranı vәsiqәsi itdiyi üçün etibarsız sayılır.

Mirzәyeva Sara Әziz qızının adına, Bakı şәhәri, Nәrimanov rayonu, Qarabağ küçәsi 8 saylı ünvanda yerlәşәn №251 mansarda "Yeni inşaatçı" MTK tәrәfindәn verilmiş müqavilә itdiyi üçün etibarsız sayılır.

Caniyeva Leyla Arzu qızına Bakı Dövlәt Universiteti tәrәfindәn verilmiş tәlәbә bileti itdiyi üçün etibarsız sayılır.

Ağazadә İbrahim Qabil oğluna Bakı Mühәndislik Universiteti tәrәfindәn verilmiş tәlәbә bileti itdiyi üçün etibarsız sayılır.





**Qoç** - Günün ilk yarısını qarşınıza qoyduğunuz mәqsәdә çatmaq üçün fayda ilә keçirә bilәrsiniz. Konkret material nәticәyә yönәlmiş iş xüsusilә yaxşı sonuclar verәcәk. Abstrakt mәnfәәtlә maraqlanmayın.

**Buğa** - Daha yaxşı işlәmәlisiniz. İstirahәt vә әylәncә ilә bağlı fikirlәrin zamanı deyil. Laqeyd olmasanız, süst davranmasanız, uğurlu gündür. Tәrәfdaşlarınızı diqqәtlә dinlәyin.

**Әkizlәr** - Günün ilk yarısında perspektivlәriniz pis deyil. Ciddi işlәrә başlaya bilәrsiniz. Qәfil problem yaranarsa, tәlәsә qapılmayın. Bir qәdәr fәal olun, şәraitdәn maraqlarınızın tәminatı üçün istifadә edin.

**Xәrçәng** - Tәrәfdaşlıq, kollektiv fәaliyyәt xüsusi aktuallıq kәsb edәcәk. Anlaşmalar vә müqavilәlәr pis alınmayacaq. Münasibәtlәrdә ciddi olsanız, müsbәt nәticәlәr әldә edәcәksiniz.

**Şir** - Günün ilk yarısı darıxdırıcı tәsir bağışlaya bilәr. Situasiyanın zahiri tәzahürlәrinә aldanmayın. Yasaqları pozanda, qadağalara mәhәl qoymayanda sonuclar vә fәsadları düşünün.

**Qız** - Çәtin olsa da, maraqlı gündür. Bir dәqiqә dә vaxt itirmәyin. Ciddi layihә ilә yanaşı, fәrdi maraqlarınızın tәminatı üçün әla gündür. Әvvәllәr yaranmış anlaşılmazlıqları asanlıqla çözmәk olar.

**Tәrәzi** - Önәm verdiyiniz istiqamәtdә ciddi irәlilәyişә nail ola bilәrsiniz. Tәmir, mәişәt vә kompüter texnikasının alınması üçün yaxşı zamandır. Qonaqların qәbulunu ertәlәyin.

**Әqrәb** - Sәfәr vә ya sәyahәt üçün münasib zamandır. Yeni informasiya, faydalı mәlumatlar әldә etmәyә çalışın. Yaxın әtrafınızdakı insanlar sizi yalnız özünü düşünәn insan kimi tanımamalıdır.

**Oxatan** - Adi günlәrdәn biridir. Heç bir ekstraordinar hadisә baş vermәyәcәk. Ev işlәri ilә mәşğul olmaq mümkündür. Qәfil tәklif olarsa, gәlir istisna deyilsә, razılaşın.

**Oğlaq** - Әtrafınızdakı insanlarla tәmaslarda sәmimi, qayğıkeş olun. Onları narahat edәn mәsәlәlәrlә maraqlanın. Zәrurәt yaranarsa, dәyәr verdiyiniz insanı düşdüyü çәtin vәziyyәtdәn xilas etmәk üçün gәrәkli addımları atın.

**Dolça** - Hüquqlarınız mәhdudlaşa bilәr. Maraqlarınızın tapdanmasına imkan vermәyin. Başqalarının görәcәyi işi sizә hәvalә etmәk istәyәnlәrә mane olun. Münasibәtlәr güzәştlәr, qurban vә qayğı tәlәb edir.

**Balıqlar** - Haqqınızda deyilәnlәrlә yanaşı, situasiya ilә bağlı dәyәrlәndirmәlәrin yer aldığı sözlәrә qulaq asın. Әsla gözlәmәdiyiniz mәnbәdәn xәbәr alacaqsınız. Şayiәlәr sürәtlә yayılacaq. Gәrәkli mәlumatı әldә etmәk çәtindir.

*Qoroskop Rusiya vә Qәrb astroloqlarının proqnozları әsasında hazırlanıb*



## Dünyanın әn sağlam ölkәlәri...

**"Bloomberg" tәrәfindәn dünyanın әn sağlam ölkәlәrinin siyahısı hazırlanıb.**

"Ölkә.az" bildirir ki, siyahıya 169 ölkә daxil edilib. İndeksdә birinci yerә İspaniya layiq görülüb. Afrika ölkәlәri isә siyahının son sıralarında qәrarlaşıb. İlk onluğu oxucularımıza tәqdim edirik. 1.İspaniya. 2.İtaliya. 3.İslandiya. 4.Yaponiya. 5.İsveçrә. 6.İsveç. 7.Avstraliya. 8.Sinqapur. 9.Norveç. 10.İsrail.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: Aydın Quliyev

Baş redaktorun müavini: Tahir Tağıyev

Redaksiyanın ünvanı: Bakı şәhәri, Mәtbuat pr. 529-cu mәhәllә, 6-cı mәrtәbә

Tel-faks: 510-87-40; 510-87-38; 510-87-39

e-mail: azer22@mail.ru

Reyestr № 0106-P219-45846

Qәzet hәftәdә 5 dәfә çıxır. (Bazar vә bazar ertәsindәn başqa). «BZ»-dә çap olunur.

Sifariş: №2514 Tiraj: 3050

Qәzetdә «Olaylar» vә «Trend» informasiya agentliklәrinin materiallarından istifadә edilir.

Reklam mәtninә görә qәzet mәsuliyyәt daşımır.